

# QARABAĞ AZƏRBAYCANDIR!


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 246 (9413) 9 NOYABR 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR


# Əziz xalqıma söz vermişdim... ...və bu gün gəldi



**Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.**

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xankəndi şəhərində keçirilən hərbi paradda iştirak ediblər



**Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlət başçısı şəxsi heyəti salamladı.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Hərbi orkestr Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdi.

Dövlət başçısı paradda çıxış etdi.

→ 2-5

# Əziz xalqıma söz vermişdim...

# ...və bu gün gəldi

## Prezident İlham Əliyevin çıxışı

- Əziz hərbçilər, mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

**Hərbçilər:** Sağ ol.

**Prezident İlham ƏLİYEV:** Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir.

Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq.

Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.



Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər.

*Ardı 3-cü səh.*









# Əziz xalqıma söz vermişdim...
# ...və bu gün gəldi
## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 2-ci səh.*

İyirmi il bundan əvvəl Prezident kimi öz fəaliyyətimə başlayanda əziz xalqıma bildirmişdim ki, biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. O vaxt hələ sülh danışıqlarına müəyyən ümidlər var idi. Ancaq illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olmuş vasitəçilər faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Ancaq Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmaq fikrində deyildi və mən dəfələrlə bunu müxtəlif kürsülərdən bəyan etmişdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik, danışıqlar nəticəsiz başa çatsa, güc tətbiq edərək beynəlxalq hüquq əsasında öz doğma torpaqlarımızı döyüş meydanında işğalçılardan azad edəcəyik. Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üzüzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi.



Qırx dörd gün ərzində Azərbaycana müxtəlif yerlərdən, müxtəlif paytaxtlardan təzyiqlər göstərilirdi, təhdidlər səsləndirilirdi. Ancaq bizi haqq yolumuzdan heç kim döndərə bilməzdi və mən Vətən müharibəsi dövründə Azərbaycan xalqına müraciət edərək demişdim ki, düşmən bizə torpaqlarımızın azad olunmasının tarixini versin, o zaman biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt bizim Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada - Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi.



O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada - Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Bu, Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi idi və bizim tələbimiz idi. Ermənistan bu tələbi yerinə yetirməyə məcbur olmuşdu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdür. Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi.



İkinci Qarabağ müharibəsindən sonra biz bir gün dayanmadan ordu quruculuğu prosesini sürətləndirirdik və bunu gizlətmirdik. Dərhal Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda uzun illər ərzində işğal altında qalmış Azərbaycan-Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan-Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq. Nə üçün biz bunu edirdik? Çünki biz bilirdik ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Biz bilirdik ki, Ermənistanın arxasında dayanan və onları bizə qarşı hərəkətə təhrik edən xarici qüvvələr onlara yenə də təxribatçı siqnallar verəcəklər. Ona görə biz öz sərhədimizi qorumalı idik və keçirilmiş bir neçə hərbi əməliyyat nəticəsində bu gün Azərbaycan-Ermənistan sərhədində vəziyyət bizim nəzarətimizdədir. Bununla bərabər, Qarabağ bölgəsində həyata keçirilmiş bir neçə hərbi əməliyyat bu bölgədə də əlverişli yüksəkliklərə sahib olmaq üçün bizə şərait yaratdı. Eyni zamanda bu əməliyyatlar Ermənistan siyasi rəhbərliyinə də bir siqnal idi ki, siz kapitulyasiya aktında təsbit edilmiş bütün müddəaları icra etməlisiniz və ilk növbədə, öz silahlı qüvvələrinizi Qarabağdan çıxarmalısınız, bu sizin öhdəliyinizdir. Amma həyatda biz bunun əksini gördük, nəinki Ermənistan silahlı qüvvələri çıxarılmadı, əksinə, daha çox qüvvə göndərilmişdi. O vaxt Laçın-Xankəndi yolu hələ bizim nəzarətimizdə deyildi, silah-sursat, minalar gətirilmişdi və Ermənistanın siyasi rəhbərliyi Qarabağdan öz silahlı qüvvələrini çıxarmaq istəmirdi.

Son üç il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux əməliyyatı, Sarıbaba-Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız. Əgər o vaxt mənim sözümə baxsaydılar, sentyabr ayında keçirilmiş antiterror əməliyyatına ehtiyac qalmazdı. Onların bütün bəlalarının səbəbkarları elə onların özləridir. Onların bəlaları təkcə üç il bundan əvvəl başlamayıb, hələ 1990-cı illərin əvvəlində başlayıb. O vaxt Azərbaycanın çörəyini yemiş, Azərbaycanın suyunu içmiş nankor kütlə Azərbaycana qarşı, bax, bu meydanda ərazi iddiası qaldırmışdır. Bax, bu binada - Azərbaycan dövləti tərəfindən vaxtilə inşa edilmiş binada Azərbaycana qarşı məkrli planlar hazırlanırdı. Erməni xalqının bəlalarının səbəbkarları Ermənistana rəhbərlik etmiş bütün şəxslərdir. Onlar hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlayacaqlar. Özləri buna o qədər inanmışdılar, xarici tərəfdaşları da inandırmağa çalışırdılar ki, onların güclü orduları var, onların güclü potensialı var, güclü himayədarları var və Azərbaycan heç vaxt torpaqları hərbi yolla azad etməyə cürət etməyəcək. Onların dəyirmanına su tökənlər, bu gün də onların arxasında dayanmış bəzi ölkələr bu məsuliyyəti onlarla 100 faiz bölüşürlər.

Biz isə deyirdik ki, heç vaxt bu vəziyyətlə barışmayacağıq və bunu gizlətmirdik. Bizə nə qədər deyilmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin hərbi həlli yoxdur. Mən isə deyirdim ki, sülh yolu ilə bu məsələ həll olunmasa, bizim başqa çarəmiz qalmayacaq və 44 gün ərzində göstərdiyimiz qəhrəmanlıq, peşəkarlıq, əfsuslar olsun ki, Ermənistan rəhbərliyinə dərs olmadı.

*Ardı 4-cü səh.*

# Əziz xalqıma söz vermişdim...
# ...və bu gün gəldi
## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 3-cü səh.*

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişdik.

Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın.

Əlbəttə ki, ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi - budur qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir. Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişdik. Yəni hazırlıq işləri apararkən, bax, biz bu günü gözləyirdik. Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı altında hərbi parad keçiriləcək.

Qırx dörd günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki suallar, demək olar ki, təkrarlanırdı. Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər - sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.

Dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: "Qarabağ Ermənistandır və nöqtə". Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.

Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın.

Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

**Hərbçilər:** Sağ ol.

**Prezident İlham ƏLİYEV:** Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!

**Hərbçilər:** Qarabağ Azərbaycandır!

*Bax: səh. 5*



# Əziz xalqıma söz vermişdim...
# ...və bu gün gəldi







❖ ❖ ❖

Azərbaycan Prezidentinin çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi başlayıb.

Parada müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, "Zəfər" və "Qarabağ" ordenli general-polkovnik Kərim Vəliyev komandanlıq edib.

Silahlı Qüvvələrin parad heyətləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Şuşa şəhərinə sancılan - Qələbənin rəmzinə çevrilən Zəfər Bayrağı altında tribunaya doğru irəliləyiblər. Ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqları Xankəndi şəhərinin mərkəzi meydanına gətirilib. Sonra Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin parad heyətinin keçidi oldu. Parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edib.

"Azərbaycan Bayrağı" və "Rəşadət" ordenli general-mayor Bilal Çompuzovun başçılığı ilə 1-ci Ordu Korpusunun, "Qarabağ" və "Rəşadət" ordenli general-leytenant Mayis Bərxudarovun rəhbərliyi ilə 2-ci Ordu Korpusunun, "Rəşadət" və "Vətənə xidmətə görə" ordenli polkovnik Oruc Abdullayevin başçılığı ilə 3-cü Ordu Korpusunun, "Azərbaycan Bayrağı" və "Rəşadət" ordenli general-mayor Münasib Babayevin rəhbərliyi ilə 4-cü Ordu Korpusunun, Vətən Müharibəsi Qəhrəmanı, "Rəşadət" ordenli general-mayor Kənan Seyidovun başçılığı ilə 5-ci Ordu Korpusunun və "Azərbaycan Bayrağı" ordenli general-mayor Məhəmməd Həsənovun rəhbərliyi ilə Əlahiddə Ümumqoşun Ordunun parad heyətləri tribuna önündən mətin addımlarla irəlilədilər. Hərbi Dəniz Qüvvələrinin dəniz piyadalarının parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Xalid İbrahimov başçılıq edib.






Daha sonra Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin rəhbərliyi ilə Hərbi Hava Qüvvələrinin parad heyətinin keçidi olub. Dövlət Təhlükəsizliyi Xidmətinin "Qartal" xüsusi təyinatlılarının parad heyəti "Qarabağ" ordenli polkovnik Cabir Cəfərovun başçılığı ilə tribuna önündən keçib.

Sonra Xarici Kəşfiyyat Xidmətinin "Yarasa" xüsusi təyinatlılarının parad heyətinin keçidi olub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlılarının parad heyəti "Vətənə xidmətə görə" ordenli general-mayor Tofiq Hüseynovun başçılığı ilə Xankəndi şəhərinin mərkəzi meydanında irəliləyib.

Dövlət Sərhəd Xidmətinin parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı, "Vətənə xidmətə görə" ordenli general-mayor Babək Ələkbərov başçılıq edib.

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti polkovnik-leytenant Eldar Quliyevin başçılığı ilə tribuna önündən keçib.

Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı müsadirə olunan hərbi texnikaların kiçik bir qismi qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirilib. Müsadirə edilmiş hərbi texnikaların və nəqliyyat vasitələrinin nömrə nişanlarından hazırlanan və üzərində "Zəfər" sözü həkk edilən lövhə nümayiş olunub.

İkinci Qarabağ müharibəsində tarixi Zəfərin üçüncü ildönümü münasibətilə Xankəndi şəhərində təşkil edilən, Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu hərbi parad "Qələbə" marşının ifası ilə başa çatıb.

# Zəfərimiz mübarək, birliyimiz əbədi olsun!



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident, Əziz Qardaşım!

Onilliklər boyu işğal altında qalmış əzəli Azərbaycan torpaqlarının ana Vətənə geri qaytarıldığı Zəfər Gününün üçüncü ildönümü münasibətilə başda zati-aliniz olmaqla bütün can azərbaycanlı qardaş və bacılarımı Türk milləti adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Cümhuriyyətimizin yaranmasının və xatirəsini ehtiramla yad etdiyimiz Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün qeyd olunduğu 2023-cü ildə bu mübarək Zəfər Gününü qeyd etməkdən böyük qürur duyuram.

Cari ilin sentyabr ayında Qarabağda dəqiqliklə həyata keçirdiyiniz antiterror əməliyyatı Ali Baş Komandanlığınızla böyük zəhmət və fədakarlıq hesabına əldə edilmiş bu bənzərsiz qələbəni taclandırdı. Zati-alinizin şəxsən ucaltdığı şanlı Azərbaycan Bayrağının indi bütün Vətən səmalarında dalğalanması Türkiyə Respublikası və bütün Türk dünyası üçün böyük sevinc və fərəh mənbəyi olmuşdur.

Vətən uğrunda şəhid olan bütün azərbaycanlı qardaşlarıma Uca Allahdan rəhmət diləyir, əziz xatirələrini ehtiramla yad edir, qazilərimizə minnətdarlığımı bildirirəm.

İşğaldan azad edilmiş bölgələrdə apardığınız bərpa və yenidənqurma işlərini təqdirlə izlədiyimi və Türkiyə olaraq bütün məsələlərdə olduğu kimi, bu məsələdə də hər zaman yanınızda olmağa davam edəcəyimizi vurğulamaq istəyirəm.

"Bir millət, iki dövlət" şüarı ilə təcəssüm olunan, "Sevincdə və kədərdə birlik" anlayışı ilə yoğurulan və zati-alinizlə imzaladığımız Şuşa Bəyannaməsi ilə taclanan sarsılmaz qardaşlıq və müttəfiqlik bağlarımızdan aldığımız güclə, ölkələrimizin əmin-amanlığı və rifahı ilə Cənubi Qafqazda davamlı sülh və sabitliyin bərqərar olması istiqamətində bütün addımları bu günə qədər olduğu kimi, bundan sonra da birlikdə atacağıq.

Əziz Qardaşım, fürsətdən istifadə edərək, zati-alinizin cansağlığı və xoşbəxtliyi, can Azərbaycan xalqının rifahı ilə bağlı ən xoş arzularımı bir daha çatdırıram.

Zəfərimiz mübarək, birliyimiz əbədi olsun!

*Rəcəb Tayyib ƏRDOĞAN,*
*Türkiyə Respublikasının Prezidenti*

# Səudiyyə Ərəbistanının Kralı Azərbaycan Prezidentini təbrik edib

İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi təbrik edib.

AZƏRTAC xəbər verir ki, Səudiyyə Ərəbistanının rəsmi "Saudi Press" (SPA) informasiya agentliyinin yaydığı təbrik məktubunda Kral Salman bin Əbdüləziz Al Səud Prezident İlham Əliyevə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Hökumətinə və xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıb.

# Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb

Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi təbrik edib.

AZƏRTAC xəbər verir ki, Səudiyyə Ərəbistanının rəsmi "Saudi Press" (SPA) informasiya agentliyi tərəfindən yayılmış təbrik məktubunda Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud Prezident İlham Əliyevə möhkəm cansağlığı, ailə səadəti, Azərbaycan Hökumətinə və xalqına isə davamlı inkişaf və rifah arzulayıb.

# Prezident İlham Əliyev Füzuli rayonunda Qarğabazar kəndinin təməlini qoyub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Füzuli rayonunda Qarğabazar kəndinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kənddə görüləcək işlər barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, Füzuli Beynəlxalq Hava Limanından 10 kilometr məsafədə, rayonun cənub-qərbində yerləşən kəndin inzibati ərazisinə Yal-Pirəhmədi və Sərdarlı kəndləri də daxildir. Qarğabazar kəndinin layihələndirilən ümumi ərazisi 152,6 hektardır. Kəndə 2 min nəfərin köçürülməsi planlaşdırılır. Burada ümumilikdə 527 fərdi ev tikiləcək. Kəndin inşasının birinci mərhələsində 181 fərdi evin tikilməsi üçün 35,5 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kəndə 181 ailənin - 629 nəfərin köçürülməsi planlaşdırılır.

Qeyd edildi ki, kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, mədəniyyət evinin, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 384 şagird yerlik orta məktəbin, 128 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, bazar kompleksinin, kitabxananın, ticarət obyektinin, qonaq evinin, məscidin və digər zəruri obyektlərin tikilməsi planlaşdırılıb. Kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin inşası nəzərdə tutulub.

Prezident İlham Əliyev Qarğabazar kəndinin təməlini qoydu.

Məlumat verildi ki, kənddə tarixi memarlıq abidələri - Şah Abbas karvansarası və Şah Abbas məscidi də bərpa olunacaq. Qarğabazar kəndi Şəki-Qarabağ-Hindistan ipək ticarəti yolu üzərində yerləşdiyindən bu yoldan istifadə edən tacirlər uzun yolun yorğunluğunu çıxarmaq üçün Qarğabazar karvansarasında gecələyirdilər. Qarabağın ən qədim məscidlərindən olan, 1684-cü ildə inşa edilən Şah Abbas məscidi el arasında Hacı Qiyasəddin məscidi kimi də tanınır.

# Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistana səfərə gedib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün noyabrın 8-də Özbəkistana səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 406 — **QƏRAR** — Bakı şəhəri, 6 noyabr 2023-cü il

## "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 828-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 148; 2003, № 8, maddə 460; 2009, № 1, maddə 34; 2017, № 2, maddə 286; 2019, № 1, maddə 153, № 12, maddə 2094; 2021, № 5, maddə 533; 2022, № 4, maddə 390, № 12, maddə 1559) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissənin birinci abzası ləğv edilsin və ikinci azbasdan "(gömrük sərhəd buraxılış məntəqələri istisna olmaqla)" sözləri çıxarılsın;

1.2. 4-cü hissədən "gömrük sərhəd buraxılış məntəqələrində gömrük orqanları və ya ölkə ərazisində" sözləri çıxarılsın;

1.3. 5-ci hissənin ikinci abzası ləğv edilsin;

1.4. 10-cu hissənin ikinci və üçüncü abzasları ləğv edilsin.

2. Bu Qərar 2023-cü il martın 1-dən tətbiq edilir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Zəfər Günü ilə bağlı paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Milli qürurumuzun təntənəsinə çevrilən Zəfər Günü münasibətilə hər kəsi təbrik edirəm! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Uca Tanrı xalqımızı və Vətənimizi qorusun!"

# Milli Məclisdən Zəfər Günü ilə bağlı paylaşım




Milli Məclisin sosial şəbəkələrdəki rəsmi səhifələrində 8 Noyabr - Zəfər Günü münasibəti ilə paylaşım edilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, paylaşımda Vətən müharibəsində möhtəşəm Zəfərin ildönümündə bu Şanlı Qələbənin qürurunu xalqımıza yaşadan qəhrəman övladlarımızın şücaətləri minnətdarlıqla qeyd olunub, torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüz uğrunda canından keçmiş şəhidlərimiz rəhmətlə anılıb.

*"Azərbaycan"*

# DTX-nin Laçın rayon şöbəsinin açılışı olmuşdur



8 Noyabr - Zəfər Günündə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Laçın rayon şöbəsinin inzibati binasının açılış mərasimi keçirilmişdir. Tədbirdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, DTX-nin rəhbər əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak etmişlər.



Öncə tədbir iştirakçıları binanın foyesində Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi fəaliyyətlərinin müxtəlif dövrlərini özündə əks etdirən fotostendə baxmış, daha sonra müasir standartlara uyğun şəkildə yenidən rekonstruksiya edilmiş binada əməkdaşların öz xidmətlərini səmərəli təşkil etmələri və əməliyyat imkanlarını daima genişləndirə bilmələri üçün yaradılan hərtərəfli şəraitlə yaxından tanış olmuşlar.

Belə bir inzibati binanın istifadəyə verilməsinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin təhlükəsizlik orqanlarına göstərdiyi diqqət və qayğının növbəti təzahürü olduğu vurğulanmış, Xidmətin şəxsi heyəti adından dövlət başçısına minnətdarlıq ifadə edilmişdir.

*Azərbaycan Respublikası*
*Dövlət Təhlükəsizliyi Xidməti*

# "Dəmir yumruğ"un dərsləri

**30 il davam edən beynəlxalq riyakarlıq, tarixi ədalətin bərpa olunması üçün hərbi gücdən istifadə olunmasını qaçılmaz etdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun hərbçiləri canları-qanları bahasına Ermənistan silahlı birləşmələrinin "məğlubedilməzliyi" barədə illərdir formalaşdırdığı mifi 44 günə məhv etdi.**



Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. İmzalanmış bəyanat rəsmi İrəvanın regionun inkişafına təhdid yaradan işğalçı siyasətinə son qoydu. Otuz il danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi və "Böyük Ermənistan" planı fiaskoya uğradı. Keçmiş "Dağlıq Qarabağ"ın statusunun müəyyən edilməsi məsələsi tarixin arxivinə getdi. Ermənistanın, onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları darmadağın edildi.

Tarixi Qələbə Azərbaycan xalqının milli dəyərlərə söykənən böyük potensialını üzə çıxardı. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil iki əsrdə yoluna qoyulması mümkün olmayan münaqişəni "dəmir yumruğ"un zərbəsi ilə cəmi 44 günün içində həll etdi. BMT tarixində bu, ilk haldır ki, belə bir mötəbər beynəlxalq qurumun qətnamələrini işğala məruz qalan tərəf özü hərbi yolla icra etdi.

İkinci Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyi, birliyi daha da gücləndirdi. Düşmənə qan udduran igid hərbçilərimiz Ermənistan rəhbərliyini Azərbaycanın qüdrətini qəbul etmək kimi danılmaz fakt qarşısında qoydular. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası, çoxlu sayda canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, qüdrətini göstərdi. Məhv edilən sadəcə Ermənistan hərbi texnikası deyil, həm də dünya erməniliyinin mənfur ideologiyası oldu. Bu müharibədə qardaş Türkiyənin mənəvi və siyasi dəstəyi də əhəmiyyətli rol oynadı. Türkiyənin açıq dəstəyi bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərinə imkan vermədi.

Hazırda işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Dövlət başçımızın amalı işğaldan azad olunmuş əraziləri ən müasir standartlara uyğun şəkildə bərpa etmək və qısa müddət ərzində soydaşlarımızı öz dədə-baba yurdlarına yerləşdirməkdir. Burada xüsusi vurğulanmalı məqam ondan ibarətdir ki, bu işi Azərbaycan dövləti öz resursları hesabına həyata keçirir.

Dövlətimizin başçısı Qarabağa səfərlər zamanı əsas diqqəti həm də erməni vandalizminə məruz qalmış tarixi mədəniyyət abidələrimizin bərpasına yönəldir. Azad edilmiş ərazilərə səfərləri ilə Prezident İlham Əliyev öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirir. Azad edilmiş bütün şəhərlərdə İşğal və Zəfər muzeyləri inşa ediləcək. Qarabağda və Şərqi Zəngəzurda hərtərəfli iş görülür - infrastruktur qurulur, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri tikilir, məscidlərimiz bərpa olunur, muzeylər, hava limanları tikilir, dəmir yolları, tunellər çəkilir. Azərbaycanın yeni quruculuq missiyası davam edir. Azad edilmiş torpaqlara həyat qayıdır.

44 günlük Vətən müharibəsində yalnız torpaqlarımızı işğaldan azad etmədik, eyni zamanda mədəniyyət beşiyimiz Şuşamıza qayıtdıq, "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri və digər milli-mədəni ənənələrimiz bərpa olundu. Muğamlarımız yenidən Qarabağın səmalarında qanadlandı. Eyni zamanda Qarabağın tacı Şuşa Azərbaycan və Türkiyə birliyinin, həmrəyliyinin zirvəsi olan Şuşa Müttəfiqlik Bəyannaməsinin imzalanmasına şahidlik etdi. Şuşa Bəyannaməsi dünyaya bir sıra mesajlarını çatdırdı. Azərbaycan dost, qardaş ölkənin Prezidentini Şuşada qarşıladı. 28 il Şuşanı erməniləşdirməyə çalışanlar atılan bu addımların fonunda bir daha bu reallığın şahidi oldular ki, tarixi inkar etmək qeyri-mümkündür.

Azərbaycan dövləti işğalçı Ermənistana sülh razılaşmasını imzalamağı təklif etməklə humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirir. Ermənistan isə xislətinə uyğun olaraq sülh razılaşmasını imzalamaqdan yayınır. Amma Azərbaycanın tələbi də ortadadır - sülh təklifi masa üzərində daimi saxlanıla bilməz.

Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurmaqla ərazi bütövlüyümüzü, sentyabrın 19-da isə suverenliyimizi tam bərpa etdik. Qarabağ bölgəsində yerləşən qeyri-qanuni erməni silahlı dəstələrinin silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərk-silah olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin Azərbaycan ərazilərini tərk etməsi, eyni zamanda bütün silah-sursat və ağır texnikanı təhvil verməsi Azərbaycanın növbəti Qələbəsinin təntənəsidir. Müzəffər Ali Baş Komandan, Azərbaycan əsgəri və xalqı bir daha sübut etdi ki, şəhidlərimizin qanı nahaq yerə tökülmədi. Suverenliyimizin tam təmin olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir. Bugünkü Azərbaycan, məhz Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır.

***Kamran BAYRAMOV,***
***Milli Məclisin deputatı***



# İlham Əliyev siyasətinin şah əsəri

Azərbaycan Respublikası hələ 1995-ci ildən konstitusion formada bəyan edib ki, başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Konstitusiyanın 10-cu maddəsi ilə təsbit olunub ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

Ulu Öndər Heydər Əliyev tərəfindən ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək dövlətimizin altı ali niyyətindən biri kimi müəyyən edilib.

Ötən 27 illik dövrdə Azərbaycan işğalçı və təcavüzkar Ermənistanla danışıqlar aparmaqla konstitusion formada müəyyən edilən və yuxarıda sadaladığımız niyyət və mövqeyə sadiq qaldığını əməli formada göstərib.

Noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündə, Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi.

Ermənistanın BMT Baş Assambleyası və BMT Təhlükəsizlik Şurasının qətnamələri başda olmaqla, çoxsaylı beynəlxalq və regional sənədlərdə rəsmən işğalçı kimi tanınmasına, Azərbaycanın ərazi bütövlüyünə açıq dəstək verilməsinə baxmayaraq, heç bir struktur və təsisat işğalçıya qarşı hansısa sanksiya, yaxud təzyiq barədə danışmır, beynəlxalq hüquq pozuntusunun aradan qaldırılması istiqamətində əməli tədbirlər görülmürdü. Bəzilərinə münasibətə saatlar içində icra olunan, hətta bir sıra subyektlərin maraqlarının təmin edilməsi naminə hərbi müdaxilə üçün BMT Təhlükəsizlik Şurasının razılığının belə alınmadığı halda, Azərbaycanın ərazi bütövlüyünü ehtiva edən qətnamələr 30 il kağız üzərində qalan ölü müddəalardan başqa bir şey olmadı. Milli məfkurənin idarə etdiyi Azərbaycan, təbii ki, bu vəziyyətlə barışa bilməzdi.

Ulu Öndər Heydər Əliyev hələ 1998-ci il oktyabrın 18-də baş tutan andiçmə mərasimində bəyan etmişdi: "Biz heç vaxt heç bir qonşu ölkənin torpağına qəsd etməmişik və bu gün də qəsd etmirik. Heç kəsin torpağına göz dikməmişik. Biz Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmışıq, Azərbaycanın dövlət sərhədləri çərçivəsində olan müstəqil Azərbaycanın tam bütövlüyünü müdafiə edirik və bundan sonra da müdafiə edəcəyik. Biz torpağımızın hansısa bir hissəsini heç vaxt heç bir ölkəyə verə bilmərik. Azərbaycanın sərhədlərinin bütövlüyü, ərazi bütövlüyü bizim üçün müqəddəsdir. Biz bu müqəddəs məqsədlərə nail olmaq üçün bundan sonra da çalışacağıq və bütün vasitələrdən istifadə edib Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olacağıq".

Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə çoxşaxəli fəaliyyəti, ordu quruculuğu, siyasi müstəqilliyə nail olunması, neft strategiyasının sistemli və müasir tələblərə uyğun formada həyata keçirilməyə başlaması prosesləri qlobal müstəvidə Azərbaycanın lehinə çevirsə də, dahi Liderin səhhəti ona prosesləri tamamlamağa imkan vermədi və özünün xalqa 2003-cü ilin 1 oktyabr tarixli sonuncu müraciətində nisgillə bildirirdi ki, xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik. Lakin Ulu Öndər nikbin idi və inanırdı ki, onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, özünün yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət adlandırdığı siyasi varisi - cənab İlham Əliyev həll edə bilər.

Öz mənalı həyatının 60 ilini xalqının bu günü və sabahı ilə yaşamış böyük Heydər Əliyev yanılmırdı, ölkənin taleyini özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevə etibar etməklə, hər zamankı kimi bu dəfə də xalqı üçün ən doğru olanını seçmiş oldu.

Beləliklə də, Azərbaycan 2003-cü ildə tamamilə yeni bir eraya qədəm qoyaraq özünün ən qüdrətli dönəminə doğru inamla irəliləməyə başladı. Yol xəritəsi isə kifayət qədər aydın idi. Cənab İlham Əliyev 31 oktyabr 2003-cü ildə, andiçmə mərasimində prezident kimi ilk çıxışında, milli mənafe mövzusunda özünün korrekt mövqeyi ilə Ulu Öndərin nə qədər haqlı olduğunu nümayiş etdirdi: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

200 illik regional düyünün açılması, 30 illik işğala son qoyulması və mütləq qələbəyə nail olunması üçün isə cənab İlham Əliyevə cəmi 17 il lazım oldu. 17 il ərzində Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursuna sadiq qalaraq, özünün hər addımı ilə bizi böyük Zəfərə daha da yaxınlaşdırdı. İlk növbədə iqtisadi inkişaf dövlət siyasətinin mütləq prioritetinə çevrildi. Daxili sabitlik, xalq-iqtidar birliyi Prezident İlham Əliyevə çoxşaxəli islahatları reallaşdırmağa, çoxvektorlu dövlət siyasəti həyata keçirməyə imkan verdi.

Təbii ki, coğrafi mövqeyimiz və zəngin ehtiyatlarımız bu prosesdə önəmli rol oynadı, lakin prosesin idarəçiliyində rasional siyasi davranış, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi olmadıqda təbii sərvətlər önəmini itirir. Bu mənada Azərbaycan Prezidentinin şaxələndirilmiş enerji siyasəti tariximizin qızıl səhifəsinə çevrildi, ölkəmiz özünün tam iqtisadi suverenliyini bərpa etdi, iqtisadi müstəqilliyini möhkəmləndirdi, hətta Avropanın iqtisadi müstəqilliyində - enerji təhlükəsizliyində önəmli pay sahibinə çevrildi. Məlumdur ki, neftlə zəngin olan bəzi ölkələr üçün neft lənət deməkdir. Bizim üçün isə bu inkişaf etmək, müstəqilliyimizi gücləndirmək, milli kimliyimizi qorumaq və güclü iqtisadiyyat qurmaq üçün vasitə idi. Paralel olaraq, dövlətçilik tariximizdə olmadığı qədər ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi artırıldı, qlobal miqyaslı nəqliyyat-kommunikasiya sistemləri quruldu, təhsil, səhiyyə, idman infrastrukturu faktiki olaraq tam yeniləndi.



Cənab İlham Əliyevin Azərbaycanı suveren gücə çevirməsi hərbi-müdafiə qüdrətini yeni mərhələyə daşımağa imkan verdi. Azərbaycan regionun hərbi-siyasi gücünə çevrilərək dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşacaq ordu, 1200 adda hərbi təyinatlı məhsul istehsal edən nəhəng müdafiə sənayesi infrastrukturu yaratmağa nail oldu.

Ötən 30 il ərzində maraqlı beynəlxalq dairələr, Azərbaycanda nəsillərin dəyişəcəyinə və daha çox qloballaşma təfəkkürü ilə formalaşan gənclik üçün artıq Qarabağ və Şərqi Zəngəzur amilinin prioritet olmayacağına inanırdılar. Lakin cənab İlham Əliyev tərəfindən Ümummilli Liderin azərbaycançılıq fəlsəfəsinin milli nüvə olaraq müəyyən edilməsi, sistemli sosial və siyasi tədbirlərin qanunauyğun nəticəsi kimi yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik, ən əsası isə qələbəyə köklənmiş gənc nəsil formalaşdırılması bu proqnozları puç etdi. Cənab İlham Əliyevin Xankəndidən bəyan etdiyi kimi: "Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi".

Nəticədə 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Bu ilin sentyabrın 19-da isə cənab İlham Əliyev lokal xarakterli antiterror tədbirləri ilə problemə nöqtə qoydu. Beləliklə, İkinci Qarabağ müharibəsində işğala son qoymaqla, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin təsis olunması ilə ərazi bütövlüyümüzü, sentyabrın 19-u isə suverenliyimizi tam bərpa etməklə cənab İlham Əliyev Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan geosiyasi reallıq yaratdı. Əvvəllər bizə məğlub və zəif kimi baxanlar Müzəffər Ali Baş Komandan İlham Əliyev iradəsi qarşısında əyilməyə, "dəmir yumruq" ətrafında birləşmiş xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi qəbul etməyə məcbur oldu. Heç şübhəsiz ki, effektiv siyasət və xalqın dəstəyi ilə tarixi ədalətin bərpa olunması, Azərbaycanın qalib ölkəyə çevrilməsi Prezident İlham Əliyevin siyasətinin şah əsəridir. Lakin bu reallığın nəticələrinin qorunması da işğala son qoyulması qədər mühüm və vacib amildir. Müharibə dövründə hərbi qələbələri ilə yanaşı, diplomatik və informasiya cəbhəsində də misilsiz liderlik şücaəti göstərən, onlarca aparıcı xarici media subyektlərinə verdiyi müsahibələrlə informasiya siyasətinin ustad dərsi nümunəsi ortaya qoyan Prezident İlham Əliyev, Zəfərimizin nəticələrinin qorunması, bu reallığın hər kəs tərəfindən qəbul edilməsi istiqamətində fəaliyyəti ilə də tarix yazdı. "Qarabağ Ermənistandır, nöqtə" deyən Ermənistan özü Azərbaycanın ərazi bütövlüyünü rəqəmlərdə ifadə etməyə məcbur oldu.

Böyük Zəfərimiz miqyasına görə yalnız Azərbaycan əhəmiyyətli məsələ hesab oluna bilməz, qələbəmiz həm də beynəlxalq hüququn təntənəsi idi. Ümumiyyətlə, Vətən müharibəsi, həm aralıq cəza əməliyyatları, həm də antiterror tədbirləri zamanı Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının 30 ildir icra edilməyən qətnamələrini icra etməklə, Azərbaycan beynəlxalq hüququn aliliyini təmin etdi. Möhtərəm Prezident bizə illər uzunu nələrisə öyrətməyə, yaxud təlqin etməyə çalışan, özləri milyonların həyatına qəsd edib bizə beynəlxalq humanitar hüquqdan dərs keçmək istəyənlərə mülki insanları hədəfə almadan müharibə və antiterror tədbirlərinin necə aparıldığını göstərdi. Ən əsası isə cənab İlham Əliyev lokal xarakterli antiterror tədbirləri ilə cəmi 23 saata minimal itkilərlə dünyada separatizmlə mübarizədə ən effektiv, real və köklü nəticə nümunəsi ortaya qoymaqla qlobal miqyasda separatizmlə mübarizədə presedent yaratdı.

Bu gün 10 illərlə işğal və separatizmin əsarətində qalan torpaqlar cənnətə çevrilməkdə, həmin ərazilərimizin potensialı ölkə iqtisadiyyatına uzun fasilədən sonra reinteqrasiya olunmaqda, ləyaqətli və təhlükəsiz formada Böyük qayıdış baş tutmaqdadır.

Beləliklə, Zəfərimizdən doğan gücümüz, möhkəmlənən həmrəyliyimiz qələbələrin davamlılığını həm təmin edir, həm zərurətə çevirir. Lakin unutmamalıyıq ki, qalibiyyət tarixin təbii axarında qorunmur, xüsusən cari region reallığında qələbənin nəticələrinin qorunması yalnız Heydər Əliyev siyasi kursunun davamlılığından birbaşa asılıdır.

***Bəhruz MƏHƏRRƏMOV,***
***Milli Məclisin deputatı***

# Bütün Azərbaycanın orduya çevrildiyi gün

**Hər bir millətin tarixində uca dağ effekti, yəni baş verdiyi vaxt arxada qaldıqca böyüklüyü daha aydın görünən mərhələlər olur ki, biz hazırda onun içərisindəyik. Sözügedən mərhələnin zirvəsində isə İkinci Qarabağ savaşında qazandığımız Zəfər durur və duracaq. Çünki bundan sonra əldə ediləcək bütün, hətta özündən də böyük zəfərlərin hamısı üçün mayak o olacaq.**



Bu gün Azərbaycana qarşı hibrid savaşı aparanlar bəlkə də, bizdən artıq bunun fərqindədirlər. Davranışlarına baxdıqda açıqca duyulur ki, Azərbaycanın Zəfəri onları ermənilərdən də çox narahat edir. Hətta o qədər narahat edir ki, oktyabrın 15-də Xankəndidə ən yüksək səviyyədə vurğulandığı kimi, Azərbaycana qarşı açıq düşmənçilik siyasəti yeridirlər. Onların kimlikləri də elə orada açıqlandı: "Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt -1992-1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı".

Cənab İlham Əliyev kimi böyük məktəb keçmiş və dünyadakı çox liderlərə diplomatiyadan dərs deyə biləcək bir dövlət başçısı adlarını çəkməsə də, "xidmət"lərini xatırlatmaqla hansılardan söhbət getdiyini göstərdiyi ölkələrin bizə düşmənçilik etdiklərini açıq şəkildə dilə gətirirsə, görün onlar bizə qarşı apardıqları hibrid savaşda hədlərini nə dərəcədə aşıblar. Niyə aşıblar, burada din təəssübkeşliyi varmı? Bəli, var. Fransa, digər yırtıcılar, onlara yandaşlıq edənlər Azərbaycanın öz torpaqları uğrunda apardığı savaşa Hantiqtoncasına, yəni sivilizasiyalararası qarşıdurma prizmasından yanaşdıqlarını gizlətmir və Ermənistanla həmrəylik sərgiləyirlər. Amma bu həmrəyliyin arxasındakı din faktoru sadəcə aysberqin görünən tərəfidir. Görünməyən, sərgilənməyən tərəfində isə o durur ki, qərbdəkilər də, iki böyük qonşumuz da Azərbaycanın İkinci Qarabağ savaşı zamanı etdiklərini Ermənistandan daha çox öz üzərlərində qələbə kimi dəyərləndirirlər. İki böyük qonşumuz ona görə belə dəyərləndirir ki, bu qələbəni neçə əsrdən sonra regionda tam şəkildə Azərbaycan-mərkəzli siyasət yeritmək qüdrətində olan bir dövlətin meydana çıxdığının təsdiqi kimi qiymətləndirirlər.

Digər böyük güclərə gəldikdə, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüquqlarının saxlanması məsələsində qərbdəkilərlə Rusiya həmrəy davranırlar. Bu cür həmrəyliyi onlarda ancaq torpaqlarımızın işğal altında qalmasına yanaşmalarında görmüşdük. Hamısı, özəlliklə keçmiş Minsk qrupunun həmsədrləri bir ağızdan təkid və təhdidlə Azərbaycandan savaş aparmamasını tələb edirdilər. Biz isə bu tələbə boyun əymədik. Bununla da dünyanın 5-dən ibarət olmadığını göstərərək presedent yaratdıq. Təbii ki, bu, ətrafında öz milli maraqlarından çıxış edən, onların yerişini yeriyən hər hansı dövlət görmək istəməyən nəhənglərin heç birinin marağında deyil. Yəni postsovet məkanında neçə yüz ildə özmərkəzli siyasət yeridən bir dövlətin peyda olması təkcə Rusiyanın deyil, digər güclərin də arzulamadıqları haldır.

Onların haylardan alət kimi faydalanaraq apardıqları oyunları da bunu bütün çılpaqlığı ilə ortaya qoyur. Rusiyanı regiondan çıxarmağa çalışan qərbdəkilər Ermənistanın subyektə çevrilməsi üçünmü bunu edirlər? Əlbəttə yox. Çünki Ermənistan Fransanın, yaxud başqa yırtıcıların diktəsi ilə hərəkət etməkdənsə, milli maraqlarına və potensialına uyğun davranışa üstünlük verəcək.

Bir sözlə, Azərbaycan İkinci Qarabağ müharibəsində təkcə yeni regional reallıq formalaşdırmadı, həm də de-fakto qlobal konyukturanı dəyişən geosiyasi inqilab etdi. Biz bunu ona görə bacardıq ki, cənab İlham Əliyev kimi qətiyyətli, geniş vizionlu, yüksək dərəcədə informasiyalı və diplomatik incəlikləri çox gözəl bilən strateq-sərkərdəmiz var. Bunu həm də ona görə bacardıq ki, İkinci Qarabağ savaşında bütün Azərbaycan orduya çevrildi.

Ordunun xalqlaşdığı və xalqın ordulaşdığını göstərən ən dəqiq mənzərə isə Azərbaycan qadınının öz şəhid oğlunun, ərinin, qardaşının nəşini çiyinlərində əbədiyyətə yola salması idi. İlk dəfə onda gördük ki, qəhərlə qürur ikisi eyni zamanda boğazda nə cür düyünlənə bilər. Şəhid qanıyla təkcə torpağın vətənə çevrilmədiyini, həm də azərbaycanlı adlı xalqdan siyasi millət yarandığını görən gözlərimizdən kədər və sevinc yaşları birgə axdı.

Bu Zəfərimiz üçün öz canlarından keçən əbədiyyət yolçularına salam olsun! Necə ki Azərbaycan var, minnətdarlıqla anılacaqlar. Doğmaları doğmamızdır! Bu orduya, xalqın qəhrəman təmsilçiləri qazilərimizə isə sevgi və sayğılarla!

***Sahib ALIYEV,***
***Milli Məclisin deputatı***



# Müdrik siyasətin qətiyyəti

**"Zəfər Günü şanlı tariximizin unudulmaz səhifəsidir. Bu tarix Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasətinin, müzəffər ordumuzun şücaətinin, xalqımızın birliyinin, igid oğulqızlarımızın mübarizliyinin təntənəsidir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib.

Azərbaycan xalqının bu günü illərlə gözlədiyini qeyd edən komitə sədri bildirib ki, işğal altında olan torpaqlarımızın azadlığı müqəddəs amalımız, arzumuz idi. Bu amalı, arzunu dövlət başçısı və ordumuz həqiqətə çevirdilər. İndi nəinki Azərbaycan xalqı, bütün türk dünyası bu qələbədən qürur duyur.

T.Rzayev vurğulayıb ki, hərbi paradın Xankəndidə keçirilməsi uzun illər torpaq həsrəti çəkən insanların ürəyinin səsi, sevinci idi: "Bu təntənəni görən hər bir soydaşımız sevinir, çünki qüdrətli, vədi ilə əməli bir olan dövlətimizin rəhbəri, yenilməz ordumuz, daim bir olan xalqımız var. Sözsüz ki, bu qəhrəmanlıq, birlik Azərbaycanın nailiyyətlərində, onun uğurlarında özünün əksini tapır. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə möhtəşəm yenidənqurma, bərpa, tikinti, abadlıq işləri aparılıq. Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı olması həmin ərazilərə 7 milyard dollardan artıq vəsaitin qoyulmasına imkan yaradıb. Əlbəttə ki, bu, ölkə iqtisadiyyatının durmadan inkişafının göstəricisidir. Cənab Prezidentin şəhər və kəndlərimizin bərpasına göstərdiyi qayğının və bu torpaqların cənnətə çevriləcəyi barədə verdiyi vədinin ifadəsidir".

Xankəndidə hərbi paradın keçirilməsinin şəhidlərimizin ruhunu sevindirdiyini vurğulayan Tahir Rzayev əlavə edib ki, bu, torpaq uğrunda sağlamlığını itirən insanlara yeni qüvvət verib, otuz il ağır əzablar çəkən insanların yarasına məlhəm olub.

Hərbi paradın dünyaya həm də bir mesaj olduğunu deyən komitə sədri bildirib ki, Prezident İlham Əliyev bu paradı keçirməklə xalqımızın qüdrətli, əyilməz olduğunu, öz torpaqları uğrunda vuruşmağı, qalib gəlməyi bacardığını bir daha göstərdi: "Ölkə rəhbəri dünyaya sübut etdi ki, Azərbaycan sülhün, əmin-amanlığın tərəfdarıdır və daim bu mövqedən çıxış edir. Dövlət rəhbəri həm də təcavüzkar Ermənistana, onun havadarlarına göstərdi ki, Azərbaycan Ordusu güclüdür, Azərbaycan xalqı birdir, onu sarsıtmaq, zor gücü ilə danışmaq, ona təsir etmək mümkün deyil. Hərbi paradın keçirilməsi hər birimizi qürurlandırdı. Bu, belə yürüşlərin vaxtilə azərbaycanlılar yaşayan Qərbi Azərbaycan torpaqlarında keçiriləcəyi ilə bağlı bizdə inam yaradır. Gün gələcək həmin torpaqlarda da bu bayramı qeyd edəcəyik".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın qüdrətinin ifadəsi

"8 Noyabr - Zəfər Günündə Xankəndidə hərbi paradın keçirilməsi Azərbaycan dövlətçiliyinin tarixi səhifələrindən biridir. Separatizmin yuvası olmuş bir yerdə Azərbaycan əsgərinin qalibiyyətlə Ali Baş Komandan qarşısında, Azərbaycan bayrağı altında hərbi parad keçirməsi dövlətimizin qüdrətinin, müstəqilliyimizin təntənəsinin nümunəsidir".



Bu sözləri Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə dünən Xankəndi şəhərində keçirilmiş hərbi paradla bağlı fikirlərini bölüşərkən deyib. Bildirib ki, Müzəffər sərkərdə qalib ordusunun paradını işğaldan azad olunmuş torpaqların mərkəzində qəbul etdi: "Hər birimiz həmin görüntüləri böyük qürur hissi ilə izlədik. Hər birimiz tarixi anın fərqində olduq.

Zəfər Günündə şəhidlərimizi dərin ehtiramla xatırlayırıq. Onların əziz xatirəsi hər zaman qəlbimizdə yaşayacaq, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda göstərdikləri qəhrəmanlıqlar, fədakarlıqlar heç zaman unudulmayacaq".

Bu gün hər bir azərbaycanlının Ali Baş Komandanla, ordumuzla fəxr etdiyini deyən A.Mirzəzadə onu da bildirib ki, Heydər Əliyev yolunun davamı, İlham Əliyevin müdrik rəhbərliyi hər zaman xalqımıza uğurlar bəxş edəcək.

Deputat vurğulayıb ki, vaxtilə işğalçılar Xankəndini separatçılığın ünvanına çevirmişdilər. "Xaricdəki müəyyən qüvvələr Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyinə, Xankəndidə Azərbaycan bayrağının qaldırılacağına inanmırdılar. Lakin xalqımızın buna inamı həddən artıq böyük idi. Bu, Ulu Öndər Heydər Əliyevin maraqlarımıza xidmət edən siyasi kursu, onun layiqli davamçısı olan Prezident cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində mümkün oldu. 44 gün ərzində torpaqlarımızı hərbi qüdrətimizlə azad etdik. Bu ilin sentyabrında isə cəmi 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri ilə Qarabağda separatizmin kökünü kəsdik. Beləliklə, Azərbaycan bütün ərazilərində özünün suveren hüquqlarını bərpa etdi və ərazi bütövlüyünü təmin etməyin uğurlu nümunəsini ortaya qoydu", - deyə A.Mirzəzadə əlavə edib.

A.Mirzəzadə torpaqlarımızın işğaldan azad edilməsindən sonrakı müddətdə Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm quruculuq işlərinin görüldüyünü, artıq yüzlərlə ailənin öz dədə-baba yurduna qayıtdığını vurğulayaraq deyib: "Azad edilmiş ərazilərdə yeni infrastrukturlar yaradılır, dünyanın diqqətini cəlb edən quruculuq işləri görülür. Artıq Qarabağ və Şərqi Zəngəzurda yenidən həyat başlayır və bütün bunlar onu göstərir ki, Böyük qayıdış proqramı sürətlə və uğurla icra olunur".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Xankəndi paradı bizə bir daha dərin fəxarət hissi yaşatdı

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və uzaqgörən siyasəti sayəsində Vətən müharibəsində qazanılan qələbəni xalqımız böyük coşqu və qürurla qeyd edir. Bu dəfə Zəfər Gününü eyni zamanda Xankəndidə keçirilən hərbi paradla qarşıladıq. Bu, Prezident İlham Əliyevin Azərbaycan xalqına bəxş etdiyi ən gözəl zəfər sevinci olmaqla yanaşı, müasir tariximizin ən şanlı hadisəsidir.



Bu barədə "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Fazil Mustafa deyib ki, Vətən müharibəsində qazandığımız qələbənin ildönümünün Xankəndidə hərbi paradın təşkil olunması ilə keçirilməsi böyük tarixi əhəmiyyətə malikdir. Bu hərbi parad Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasının, ölkəmizin yenilməz gücünün və qüdrətinin təcəssümüdür: "Bu, Azərbaycanın müstəqillik tarixinin ən möhtəşəm anıdır. Qələbə qazandıqdan sonra bütün dünyaya, həm dostlara, həm də düşmənlərə gücümüzü və şəxsiyyətimizi göstərən əlamətdar hadisədir. Bu parad həmçinin dövlətimizin və xalqımızın qələbəyə, zəfərə nə qədər dəyər verdiyini təsdiq edir".

Deputat bildirib ki, Azərbaycan xalqı xoşbəxt xalqdır. Ona görə ki, Allah bizə uzun illər sonra Xankəndidə bayram keçirməyi nəsib edib. Bu bizim müasir tariximizin ən böyük, ən möhtəşəm hadisəsidir. Ötən gün Prezident, Ali Baş Komandan İlham Əliyevin tədbiri qürurla keçirməsi, paradı qəbul etməsi bizə bir daha dərin fəxarət hissi yaşatdı.

"Azərbaycan bu paradla bir daha bütün dünyaya bəyan etdi ki, həm döyüş meydanında, həm də danışıqlar masası arxasında haqqın yanında olmaq bizim ən güclü silahımız oldu. Bunun nəticəsidir ki, 3 il əvvəl igid oğullarımızın qanı-canı hesabına azad edilən torpaqlarımızda Zəfər Günü təntənəli şəkildə qeyd edilir", - deyə deputat vurğulayıb.

Fazil Mustafanın sözlərinə görə, Xankəndidə keçirilən hərbi parad Azərbaycanın Zəfərinin sarsılmaz olduğunun təsdiqidir: "Döyüş meydanında düşməni diz çökdürən və kapitulyasiyaya məcbur edən qalib Azərbaycanın Xankəndidə bayraq dalğalandırması, parad təşkil etməsi ilahi ədalətin yerini tapmasıdır".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***



# Ermənistanın xam xəyalları darmadağın oldu

"Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərin 3-cü ildönümünü təntənəli şəkildə qeyd edir. Bu il hərbi parad sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirləri nəticəsində separatçılardan azad edilmiş Xankəndidə keçirildi. Bu parad xalqımızın qətiyyətini daha da artırdı və Prezident İlham Əliyevin sözü ilə imzasının eyni olduğunu bütün dünyaya bir daha bəyan etdi. Dövlət başçısı şanlı qələbəmizdən sonra keçirilən ilk Zəfər paradında söyləmişdi ki, "Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik". Belə də oldu, bu il Zəfər paradının Xankəndidə keçirilməsi xalqımızın əminliyini və inamını daha da artırdı".

Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev bildirib. O deyib ki, Azərbaycanın bütün ərazilərində, xüsusilə də separatçılardan təmizlənən Xankəndidə bayrağımızın dalğalanması olduqca qürurvericidir: "Biz Zəfər Gününü üç ildir ki, qeyd edirik, Bakıda, Şuşada hərbi paradlar keçirmişik. Bu dəfə isə hərbi paradı məhz Xankəndidə təşkil etdik. Bu bizim şanlı tariximizdir! Bu gün Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib, bundan sonra isə yalnız quruculuq işləri ilə məşğul olmalıyıq. Bu, həqiqətən də, qürurvericidir".



A.Nağıyev açıqlamasında Ermənistan və havadarlarının Xankəndidə keçirilən paraddan dərs çıxarmalı olduqlarını da vurğulayıb. Qeyd edib ki, şərəf və qürur bayramımızı həsrətində olduğumuz Xankəndidə qeyd etməyimiz bizim gücümüzün göstəricisidir. Bu parad ermənilərin 30 il ərzində qurduqları xam xəyalları bir daha darmadağın etdi, Azərbaycan ərazisində qondarma dövlət quracaqları barədə arzularını puç etdi".

Deputat deyib ki, bu gün hər bir azərbaycanlı fəxr edir ki, bu torpağın övladıdır və bu Vətənin keşiyindədir: "Bütün azərbaycanlılar qürur hissi keçirir ki, bu gün Azərbaycan torpaqları tam azaddır, suverenliyimizi və ərazi bütövlüyümüzü "dəmir yumruq" olub təmin etmişik və işğaldan azad olunmuş bütün torpaqlarda, eləcə də Xankəndidə Azərbaycan bayrağı dalğalanır. Xankəndinin, Xocalının, erməni işğalına məruz qalmış bütün torpaqlarımızın azadlığına qovuşması bizim qürur mənbəyimizdir. Qarabağ Azərbaycandır!

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Zəfər paradının Xankəndi təntənəsi

*8 noyabr 2023-cü il...*
*Qürur salnaməmizin daha bir qızıl möhürlü günü...*
*O gün zirvələr yaraşığı ay-ulduzlu, üçrəngli bayrağımız Xankəndidə Zəfər paradında məğrur-məğrur dalğalandırılaraq dosta sevinc, düşmənə göz dağı oldu...*
*Həmin möhtəşəm tarixdə bütün dünya Xankəndidə yaşanan zəfər ehtişamının tamaşasına durdu...*
*Qarabağdan ucalan təntənəli qələbə marşının sədaları altında çiyin-çiyinə addımlayan ürəyi vətən sevdalı azman Azərbaycan oğulları başlarını dik tutaraq fəxarətlə Müzəffər Ali Baş Komandan İlham Əliyevi, Azərbaycan xalqını, şəhidlərimizin ruhunu salamladılar.*
*O gün ana torpağımızın bağrı ilə axan çoşqun sellər də sanki buludlara qoşulub sevinc göz yaşları axıtdılar, Qarabağdan baş götürən rüzgarlar bütün ellərə zəfər müjdəsi yaydılar, yerlər də, göylər də bir ağızdan "Zəfərin mübarək, ey şanlı Azərbaycan! Yaşa, var ol, Zəfər Xalqı, Zəfər Ordusu, Zəfər Komandanı", - deyə hayqırdılar...*

### "Qarabağ Azərbaycandır və nida"

Düz üç il əvvəl noyabrın 8-də Şuşada qazandığımız parlaq qələbənin xoşbəxtliyini Xankəndidə keçirilən Zəfər paradında bir daha yaşadıq, qürurdan ürəyimiz dağa döndü.

44 günlük Vətən müharibəsində qazanılan zəfərin möhtəşəm nəticəsi idi ki, 2023-cü ilin payızında suverenliyimizin tam bərpasına nail olduq.

Oktyabrın 15-də Xankəndidə Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Azərbaycan bayrağının dalğalandırılması parlaq Zəfərimizin üçüncü ildönümünə ən böyük töhfə idi.

Bu həm də Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır!" haqq nidasının qızıl imzalı təsdiqi oldu.

O da təsadüfi deyildi ki, hələ 2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən Zəfər paradında Müzəffər Ali Baş Komandan İlham Əliyev çıxışını məhz bu fikirlərlə yekunlaşdırmışdı: "Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

### Ədalət zəfər çaldı

2020-ci il dekabrın 10-da şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Azadlıq meydanında Zəfər paradında bəyan etdiyi kimi, Azərbaycan xalqı indi yaşadığı bu qələbə coşqulu günlərə addım-addım, qətiyyətlə, əzmlə yetişdi.

Xalq, dövlət, ordu birliyinin gücündən yaranan "dəmir yumruq" Vətən müharibəsində cəmi 44 günə düşmənin belini qıraraq qələbə qazandı, torpaqlarımızın işğalına son qoydu. 30 illik vətən həsrətimiz sona çatdı, yüz minlərlə məcburi köçkünün yurd nisgili bitdi.

Bu möhtəşəm qələbəni xalqımıza Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu bəxş etdi.

Ana torpağın hər qarışı uğrunda çarpışan qəhrəman oğullarımız 3 il öncə - noyabrın 8-də Azərbaycan bayrağını Şuşada dalğalandırdılar.

Vətənimizin azadlığı uğrunda zəfər yürüşünə çıxan igidlərimiz dərə-təpə demədən, soyuq-şaxta hiss etmədən, yeri gəldi namərd düşmənin pusqusunu darmadağın edərək, yeri gəldi ölümə meydan oxuyaraq mərd-mərdanə yürüdülər düşmən üzərinə. Bu azman igidlərin sözün əsl mənasında yalın əllə düşmənin nəfəsini kəsərək Qarabağın baş tacı Şuşanı işğaldan azad etmələri isə dünya hərb tarixi üçün örnək götürüləsi nümunə, Azərbaycan xalqının min illər sonra belə öyünəcəyi qəhrəmanlıq salnaməsi oldu.

Vətən müharibəsinin 44 gününün hər birində şücaətli əsgərlərimiz şanlı tarix yazdılar, canlarını Vətənə sipər edən cəsur oğullarımız hər gün qələbə müjdəsi ərməğan etdilər xalqımıza.

2020-ci ildə Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradındakı çıxışında Müzəffər Ali Baş Komandan İlham Əliyev də vurğulamışdı ki, Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu: "Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

### Əzəli və əbədi Azərbaycan torpağı

Müzəffər Ali Baş Komandan İlham Əliyevin əzmi, qətiyyəti, igid oğullarımızın polad iradəsi, gücü sayəsində cəmi 44 gün ərzində haqq savaşımızın zəfərlə başa çatması xalqımıza yeni-yeni qələbələr ərməğan etdi.

Şuşa zəfərindən ötən üç il müddətində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, suverenliyini təmin etdi.

Oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə, Xocalıda, Xocavənddə, Əsgəranda, Ağdərədə, Sərsəng su anbarı ərazisində bayrağımızı dalğalandıraraq bütün dünyaya bu yerlərin əzəli və əbədi Azərbaycan torpağı olduğunun ismarışını verdi.

Noyabrın 8-də Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradın məhz Xankəndidə keçirilməsi isə düşmənin canına bir daha qorxu saldı, xalqımıza qələbə qüruru yaşatdı, bu torpaqlar uğrunda şəhid olan vətən övladlarımızın ruhunu şad etdi.

Gözün aydın olsun, bütöv Azərbaycan!

Zəfərin mübarək, Azərbaycan xalqı!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



## Xankəndidəki Zəfər paradı dünya erməniliyinə sarsıdıcı zərbə oldu:

# "Tariximizin ən böyük matəmini yaşadıq" "Bitdi. Qarabağı tam itirdik" "Onların qələbə paradı bizim çoxəsrlik müharibəmizin tam məğlubiyyət simvolu oldu"

Dünən Xankəndidə keçirilən Vətən müharibəsindəki Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad Hayastanda sözün əsl mənasında şok effekti yaradıb. Paradla bağlı informasiyanı tirajlayan mediaya, siyasi ekspertlərin açıqlamalarına, sosial şəbəkələrin erməni istifadəçilərinin statuslarına nəzər saldıqda bəlli olur ki, buna görə Paşinyan hakimiyyətini və Qarabağda ləğv edilmiş separatçı rejimin "rəhbərlərini" kəskin tənqid edirlər.

Erməni şərhçi Manvel Levonisyan Xankəndidə qələbə paradının keçirilməsini "erməni xəyallarının sonu" adlandırıb. Qeyd edib ki, son illərin ermənilər üçün ən çətin günü 10 noyabr 2020-ci il tarixidir: "O vaxt göy üzü uçmuş kimi görünürdü və 44 gün ərzində gördüyümüz kiçik ümidlər baş nazirin bir sənədə imza atdığını öyrəndikcə yox oldu. O gün müharibənin dayandırıldığı, ümidlərimizin və gələcəyimizin təslim edildiyi tarixdir. O gün hamımız çox qəzəbləndik, amma qarşıdakı ayların daha çətin olacağını təsəvvür edə bilməzdik. Bilməzdik ki, döyüşmədən və itkilər vermədən Qarabağı itirməyə davam edəcəyik. Yeni əraziləri təhvil verməyə davam edəcəyik, hər addımda yanımızda Azərbaycan bayraqları görəcəyik. Üstəlik, bizə qarşı olan psixoloji və təbliğat hücumu davam edəcək. Bizim üçün Stepanakert (Xankəndi - red.) artıq yoxdur, bir daha da olmayacaq. Acı olsa da, bu, gerçəkdir. Onların qələbə paradı bizim çoxəsrlik müharibəmizin tam məğlubiyyət simvolu oldu".

Erməni politoloq Nikol Qasparyan isə qeyd edir ki, Azərbaycan hər zaman istəyinə nail olmaq gücündədir: "Azərbaycanlılar öz proqramlarını minimum həyata keçirdilər. Yəni Qarabağı azad etdilər. Xankəndidə parad keçirdilər. İndi isə onların qarşısında maksimum proqramı həyata keçirmək durur. Azərbaycanın qarşısında dayanan maksimum məsələ Zəngəzuru, Basarkeçəri, İrəvanı, Qarakilsəni və digər əraziləri azad etməkdir. Hazırda Azərbaycanda növbəti nəsli buna hazırlayırlar. Çünki bilirlər ki, xoşluqla heç kim bu əraziləri onlara qaytarmayacaq. Əgər onlar Qarabağı azad etməyi bacarıblarsa, onda niyə sadaladığım torpaqları da geri qaytarmasınlar".

Tatevos Çaxmaxçyan adlı istifadəçi "Telegram" kanalında paradla bağlı paylaşılan xəbərə maraqlı rəyi ilə diqqət çəkib: "İlham Əliyev Stepanakertdə (Xankəndi - red.) parad keçirərək Qarabağın Azərbaycanın olduğunu dünyaya tam göstərdi. Bu videoları kaş gözlərim kor olardı, görməzdim. Tariximizin ən böyük matəmini yaşadıq. Hayastanı parlaq gələcək yox, parlaq ölüm gözləyir. Paşinyan isə hakimiyyətdə qalmağın yollarını axtarır. Sarkisyan vətənimizi, zavodlarımızın yarısını oliqarxlara, yarısını da xaricilərə satıb. Paşinyan da İrəvanı satarsa, heç təəccüblənməyək".

Aşot Karapetyan isə "Odnoklassniki"də paradla bağlı videonun yer aldığı paylaşımın altına yazdığı rəylə diqqət çəkib. Profilinə baxdıqda, ABŞ-də yaşadığını qeyd edən istifadəçi məyusluğunu belə ifadə edib: "Azərbaycan Prezidenti 7 il əvvəl apreldə S.Sarkisyana, üç il öncə isə Qarabağı geri almaqla Paşinyana yüksək peşəkarlığın necə olduğunu göstərdi, əsl dərs verdi. 8 il öncə Stepanakertdə (Xankəndi - red.) əmimgildəydim. Maşınla keçdiyimiz, bayramları qeyd etdiyimiz meydanda indi İlham Əliyev qələbə paradı keçirir. Bitdi. Qarabağı tam itirdik. Bizim baş nazirimiz xalqa nə cavab verəcək?"

Bu arada Qarabağdan Hayastana qayıdan ermənilər "4rd.am" saytının müxbiri ilə söhbət zamanı ağır günlər yaşadıqlarını ifadə ediblər. Nəşrin "Xankəndidəki hərbi parad və İkinci Qarabağ müharibəsinin üçilliyi ilə bağlı İrəvanda nə düşünürlər?" reportajında ermənilər çox ağır məğlubiyyətin yaşandığını, bunun ölkə üçün dəhşətli olduğunu qeyd ediblər. Hayastan vətəndaşı bu xüsusda bildirir: "Son üç ildir yaşamırıq, ölürük. Bu, ömür deyil. Hesab edirəm ki, bu bizim üçün bir rüsvayçılıqdır. İlham Əliyev Stepanakertdə (Xankəndi - red.) parad keçirir, Azərbaycan bayrağını ucaldır… Sülh olmasını istəyirik (ağlayır)".

Başqa bir erməni qadın da son 3 ilin onlar üçün çox çətin olduğunu qeyd edib: "30 il idi Stepanakertdə (Xankəndi - red.) yaşayırdıq. Bir aydan çoxdur İrəvanda bacımgildə qalırıq. Birtəhər uyğunlaşırıq. Deyərdim ki, aldığımız yaranı zaman da sağaltmaz".



Nəşrin digər erməni müsahibi isə son iki ayda baş verənləri ümumi faciə adlandırır: "Qarabağın itirilməsi bizi çox ağır sınaqlara düçar etdi. Azərbaycan necə deyirdi, elə də etdi. Bizimkilər rusları düşünürdülər, Rusiya isə bunu etmədi, həmişəki kimi öz müttəfiqinin hayına yetmədi. Çox zaman keçməlidir, ancaq zaman da bu ağrını sağalda bilməz".

Erməni qadının da qeyd etdiyi kimi, onlar bir daha özlərinə gələ bilməyəcəklər. Amma Hayastan varlığını davam etdirmək üçün Azərbaycanla münasibətlərini normallaşdırmalıdır. Əks halda məhvə məhkumdur.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



# 30 il gözlədiyimiz hadisə

Bəzən insanın həyatında elə məqam olur ki, sinəsi həyəcanla dolur, ürəyi çırpınır. Həmin məqamda sevinc duyğusu, qürur hissi qəhərə çevrilib göz yaşlarına dönür. Hətta o dərəcədə ki, göz yaşlarını silməyə insanın əli qalxmır.

Əminik ki, bütün insanların hər birinin həyatında bənzər duyğular olur. Bu hissi bir xalq olaraq biz dünən Xankəndidə keçirilən Zəfər paradını izləyəndə də yaşadıq. Təntənənin möhtəşəmliyinə o qədər aludə olmuşduq ki, sanki bütün Azərbaycan meydanda idi. Çünki 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərin üçüncü ildönümünə həsr olunmuş hərbi parad Azərbaycan xalqının 30 illik bir həsrətinin vüsalı idi. Bu parad 30 ilin həsrətindən doğan qürurun möhtəşəm nidası idi.

Bu günü illərdir gözləyirdik. Bu günün şərəfini və qürurunu təntənə ilə yaşayacağımıza bəzən inanmasaq da, bir çox hallarda ümidimiz əlimizdən tutub, "gələcək o gün" deyə pıçıldayırdı. Gəldi həmin gün. Dünənki 8 Noyabr Zəfərinin möhtəşəmliyi, bəlkə də, Azərbaycan tarixinin son yüz ilində bu cür olmamışdı. Bu parad Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Ona görə ki, belə təntənələr adətən paytaxt meydanlarında keçirilir. Belə paradın biz üç il əvvəl dekabrın 10-da Azadlıq meydanında şahidi olduq. Zəfər paradı adlandırdığımız həmin təntənədə 3000 Azərbaycan hərbçisi ilə yanaşı, türk əsgər və zabitləri də addımlayırdılar. Paradı Müzəffər Ali Baş Komandan İlham Əliyevlə birlikdə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan da qəbul edirdi. Çox qürurlu idi!

Dünən isə Zəfərin 3 illiyinə həsr edilən hərbi parad sentyabrın 19-20-də 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticəsində azad olunan Xankəndidə keçirildi. Bu paradın qüruru bütün qürurlardan ucada idi. Bu ucalığın mənbəyi rəşadətli Azərbaycan Ordusunun əsgər və zabit heyətinin meydandakı nizamlı addımları, iti baxışları, düz qamətləri, əsgər andına sadiqliyi, döyüş ruhu və əzmkarlığı, ən nəhayət, "dəmir yumruğ"un qətiyyəti idi. Bu parad göstərdi ki, Azərbaycan Ordusu təkcə Ermənistan silahlı qüvvələrini darmadağın etməyib, həm də erməni separatizminin sonuna çıxıb. Hələ uzun illər Xankəndidəki paradın təntənəsi, gur səsi İrəvandakıların qulağını deşəcək, möhtəşəm görüntüsü gözlərini kor edəcək. Vətən müharibəsində və antiterror tədbirlərində əsl qəhrəmanlıq göstərən, rəşadət, şücaət, yüksək peşəkarlıq sərgiləyən, Azərbaycan xalqına Böyük Zəfərin sevincini daddıran hərbi qulluqçuların Dövlət və Zəfər bayraqları ilə bəzənmiş tribunanın önündən keçməsindən müqəddəs başqa nə ola bilər?! Bu, Böyük Zəfərin daha bir təntənəsi idi!

Dünən bütün Azərbaycanın gözü Xankəndinin baş meydanında oldu. Dünən xalqımız özünün daha bir möhtəşəm gününü yaşadı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun şücaəti sayəsində azad olunan Xankəndidə keçirilən paradı özgə cür qarşılamaq mümkün deyildi. Paradın təntənəsini artıran amillərdən biri də onu qəbul edən Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevlə yanaşı, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyevin iştirak etməsi oldu.

Keçmiş SSRİ vaxtı Bakıda keçirilən paradlarda sovet əsgərlərinin nizamlı yerişi, döyüş maşınlarının gurultusu ürəyimizi dağa döndərməzdi. Sanki bilirmişik ki, həmin uğultu, gurultu 1990-cı ilin yanvarında ürəyimizi parçalayacaq. Nə yaxşı ki, paramparça olmuş ürəyimizi sönməyə qoymadıq, ayağa qalxaraq gücümüzü Qarabağdan, özü də Xankəndidən erməni faşizminə nümayiş etdirə bildik. Bu, 30 il bizə ədalətsizlik sərgiləyənlərə, ikili standart nümayiş etdirənlərə də bir mesaj idi. Bu, müstəqil Azərbaycanın səsi idi. Bu, Azərbaycan adlı məmləkətin var olduğunun təntənəsi idi! Bu, hər bir Azərbaycan vətəndaşının qəlbinin fərəhlə döyünməsinə, ürəyinin dağa dönməsinə səbəb olan yaşantılar idi! Bu, Vətən müqəddəsliyininin toxunulmaz olduğuna işarə idi! Bu, Azərbaycanın Silahlı Qüvvələrinin 2020-ci il Zəfərinin davamı idi. Xankəndidəki bu təntənə, bu görüntü, bu əzəmət barədə hələ çox illər danışılacaq, şərh ediləcək, araşdırılacaq və yazılacaq.

Zəfər Günündə ürəyimizi dağa döndərən, gözlərimizə sevinc yaşları gətirən daha bir hadisə Xankəndidəki hərbi paradla eyni anda Bakı küçələrində keçirilən yürüş idi. Dörd istiqamətdən başlanan yürüşdə hərbi orkestrin ifasında vətənpərvərlik və qələbə ruhunda səsləndirilən mahnılar, marşlar paytaxt sakinlərinin və qonaqlarının duyğularını coşdurdu. Yürüş iştirakçılarının əlindəki üçrəngli bayrağımız başlar üzərində qanad gərib cövlan etdi. 8 Noyabr növbəti dəfə canımıza, qanımıza hopdurduğumuz, qan yaddaşımıza köçürdüyümüz ən möhtəşəm gün oldu.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Zəfərin gücü

Yaşanan hər gün tarixə çevrilmir. Tarixə çevrilən hər gün isə bayram kimi qeyd edilmir. Bəzən təqvimdə qara səhifələrə dönür günlər...

Ötən əsrin sonlarında Azərbaycanın Qarabağı, Şərqi Zəngəzuru təcavüzkar ermənilər tərəfindən işğal olunandan sonra təqvimimizdə belə səhifələrin sayı artmışdı. Ermənistan silahlı qüvvələrinin əsarəti altında qalan yurdlarımızın hər il işğal ildönümlərini qeyd etdikcə ruhumuz daralırdı, qəlbimiz sızlayırdı. Məğlub xalq olduğumuzdan utanırdıq. Yurd yerlərimizin düşmən tapdağı altında qaldığına görə özümüzə yer tapmırdıq. Qarabağ, Şərqi Zəngəzur ərazilərinin qəsbkar, təcavüzkar ermənilərin əllərinə keçməməsi üçün döyüşərək canlarından keçən şəhidlərimizin ruhları qarşında xəcalət çəkirdik.

Ruhumuzu əzən, ürəyimizdə ağrıya dönən, bizi diligödək, başıaşağı edən o hisslərdən qurtuluşumuzun Zəfəridir həm də 8 Noyabr. Misilsiz duyğulardır. Sözlə ifadə edilməsi belə mümkünsüzdür. Üç ildir ki, Azərbaycan xalqı bu böyük bayramın sevinci, qüruru içərisindədir.

Əlbəttə, tarix heç zaman unudulmur. O işğal günləri də yaddan çıxmayacaq. Ermənilərin namərdliyi, qəddarlığı, təcavüzü tarixdə qaldı. Təqvimimizdəki qara səhifələri artıq bayram günləri əvəz edib. Çünki biz qalib xalqıq.

Azərbaycanın Müzəffər Ordusu bu ilin 19-20 sentyabrında həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə Ermənistan silahlı qüvvələrinin qalıqlarını, cinayətkar xunta rejimini birdəfəlik diz çökdürdü. Düşmən ağ bayraq qaldıraraq təslim oldu. Azərbaycanın suverenliyi tam bərpa edildi.

Azərbaycan xalqı oktyabrın 15-də daha bir tarixi hadisənin sevincini yaşadı. Azərbaycan Respublikasının Dövlət Bayrağını Pezident, Ali Baş Komandan İlham Əliyev Xankəndi şəhərində ucaltdı və fərəhlə, qürurla: "...biz bu Qələbəyə layiqik", - dedi. Dövlətimizin başçısı, Ali Baş Komandan o zaman da bəyan etdi: "Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Azərbaycan xalqı layiq olduğu və uzun illər həsrətlə, ümidlə gözlədiyi qələbə sevincini artıq üç ildir ki, təntənə ilə qeyd edir. Dünən 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Bakıda, Gəncədə, Bərdədə, Füzulidə, Zəngilanda, Laçında... hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri təşkil olundu. Bu il Azərbaycanın digər şəhərləri ilə yanaşı, Xankəndi də bayram əhval-ruhiyyəsinə büründü. Həmin gün Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirildi.

Paradda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, onunla yanaşı, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev də iştirak etdilər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi. Xankəndi şəhərində keçirilən Zəfər paradına müdafiə nazirinin birinci müavini, general-polkovnik Kərim Vəliyev komandanlıq etdi.

Meydana Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları gətirildi.

Vətən müharibəsində və antiterror tədbirlərində əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək xalqımıza Böyük Qələbənin sevincini yaşadan hərbi qulluqçular tribunanın önündən keçdilər.

Vaxtilə Azərbaycan ərazilərində qanunsuz yerləşdirilən erməni silahlı birləşmələrindən qənimət kimi götürülən tanklar və texnikalar paradda nümayiş etdirildi. Həmin tanklar və texnikalar Azərbaycan Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın üzərində yerləşdirilərək parad meydanından keçdi.

Paradda nümayiş olunan vaxtilə Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş erməni silahlı birləşmələrindən qənimət kimi götürülən avtomobil və texnikaların nömrə nişanlarından hazırlanan, Azərbaycan Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın üzərində yerləşdirilən nəhəng lövhədə böyük hərflərlə "ZƏFƏR" sözü yazılmışdı.

Noyabrın 8-i uzun illər sonra erməni işğalından qurtularaq azadlığına qovuşmuş, artıq səmasında dövlətinin Bayrağı dalğalanan, küçələrində doğma sakinlərinin dilində danışılan Xankəndinin əsl adına layiq tarixi bir gün oldu. Xankəndidə keçirilən parad əldə edilən Zəfərimizin növbəti təntənəsinə çevrildi. Düşmən birdəfəlik gördü və bildi ki, Azərbaycana qarşı qaldırdığı silahlarının son yeri bu ölkənin Zəfər paradında nümayiş etdirilmək və Qənimətlər Parkıdır. Azərbaycanın öz əzəli ərazilərinə sahib olan güclü dövləti, bu dövlətin yanında olan vətənsevər xalqı var. Bu varlıq, bu birlik hələ Azərbaycan dövlətinə, xalqına çox Zəfərli günlər bəxş edəcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Şanlı yürüş

44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli ordumuz tarixi missiyasını yerinə yetirərək, torpaqlarımızı işğaldan azad etdi, xalqımıza zəfər sevinci yaşatdı. Artıq 3 ildir 8 Noyabr - Zəfər Gününü böyük təntənə ilə qeyd edirik.

2020-ci il dekabrın 10-da Zəfər paradımızı Bakıda, Azadlıq meydanında keçirdik. Bu parad döyüşlərdən qalib çıxmış qəhrəman əsgərlərimizin yürüşü idi. Prezident İlham Əliyevin dediyi kimi, bu paradın xüsusi önəmi var idi: "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir".

Builki paradımız isə Xankəndidə keçirildi. Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradı Ali Baş Komandan İlham Əliyev qəbul etdi. Paradda Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif bölmələri iştirak etdilər. Burada həmçinin düşməndən qənimət kimi götürülən hərbi texnikalar və hərbi texnikaların üzərindən götürülən nömrələrdən hazırlanmış lövhə nümayiş olundu.

Xankəndidə keçirilən hərbi parad respublikamızın hərbi-siyasi iradəsinin, suverenliyinin bərpasının, Vətən müharibəsində qazanılan Zəfərin və "Qarabağ Azərbaycandır!" şüarının təcəssümünə çevrildi.

Xatırladaq ki, Xankəndidə ilk hərbi parad 1919-cu ilin iyulunda - Cümhuriyyət dövründə keçirilmişdi. 104 il sonra Azərbaycanın üçüncü Zəfər paradının məhz Xankəndidə keçirilməsi xüsusilə qürurvericidir.

1991-ci il dekabrın 28-də Xankəndi şəhəri və ətraf ərazilər üçün mühüm strateji əhəmiyyətə malik olan Kərkicahan qəsəbəsi düşmən tərəfindən işğal olunmuşdu. Bu il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra ordumuz bütün ərazilərimizi separatçılardan azad etdi. Ali Baş Komandanımız oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Bu gün biz qalib xalq kimi Zəfər bayramımızı qeyd edirik. Xislətindən heç vaxt əl çəkmək istəməyən düşmən yenidən baş qaldırmaq niyyətinə düşərsə, yenə "dəmir yumruq"dan nəsibini alacaq.

Budəfəki parad xalqımızın tarixində ən əlamətdar hadisələrdən biridir. Torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpasının bir təcəssümü olan bu parad dövlətimizin, ordumuzun gücünü, əzəmətini bir daha göstərdi, dostları sevindirdi, düşmənə dağ çəkdi. Bütün dünya qətiyyətimizin, əzmimizin bir daha şahidi oldu.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Xankəndinin adına layiq tarixi gün

8 Noyabr - Zəfər bayramı. Hər birimiz və hamımız üçün müqəddəs bir gün. Sevinc və fərəh dolu bu əziz günü xalqımıza Azərbaycan Ordusu 27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı nəticəsində başlayan və 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qazandığı böyük uğurları, zəfərləri ilə bəxş etdi.

3 ildir ki, qəlbləri riqqətə gətirən bu əlamətdar gün ölkəmizin hər yerində, hər guşəsində böyük təntənə ilə qeyd olunur. İnsanların da, işğaldan azad olunmuş torpağın da üzü gülür, sevinc sevincə qarışır. İndi Zəfər bayramı həm də işğaldan azad olunmuş rayonlarımızda - Laçında, Şuşada, Zəngilanda, Füzulidə, Kəlbəcərdə və başqa bölgələrdə keçirilir. Zəfər sevincini ifadə edən insanlar üçrəngli bayrağımızı başlarının üzərinə qaldıraraq meydanlardan keçirlər. Bu qələbəni, bu zəfəri onlara yaşadan hərbçilərə alqış deyir, minnətdarlıq edirlər.

8 Noyabr 2023-cü il də tariximizə böyük hərflərlə yazılacaq. Çünki bu tarixdə düşmən üzərində qazanılmış qələbədən 3 il sonra həmin gün - Zəfər Günü münasibətilə Xankəndi şəhərinin mərkəzində hərbi parad keçirildi. Xalqımız qürur dolu bir gün yaşadı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev hərbi paradda iştirak edirdilər.

Xatırladaq ki, Xankəndidə hərbi parad 104 il əvvəl - 1919-cu ilin iyul ayında keçirilmişdi. Deyirlər ki, tarix təkrar olunur. 104 ildən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu uzun illər torpaqlarımızı işğalda saxlayan düşməni məhv etdi. Oktyabrın 15-də Azərbaycan Prezidenti Xankəndidə üçrəngli bayrağımızı dalğalandırdı. Zəfər Günü - 8 Noyabrda Qarabağımızın böyük şəhərində hərbi parad keçirildi. Azərbaycan bayrağı ölkəmizin ayrılmaz hissəsi olan Qarabağda yenidən böyük əzəmətlə dalğalandı. Qarabağ torpağı doğma sakinlərini böyük sevinclə qoynuna aldı.

30 ilə yaxın idi ki, xalqımız bu günü, bu anı həsrətlə gözləyirdi. Gözləyirdi ki, Qarabağın işğalına son qoyulsun, torpaqlarımız erməni qəsbindən azad olunsun. Şükürlər ki, artıq üç ildir ki, həsrətə son qoyulub. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2020-ci ildə erməni işğalçıları üzərində böyük qələbə qazandı. Uzun illərdən sonra Azərbaycan xalqı tarixi torpaqlarına qayıtdı. Noyabrın 8-də Qarabağın mərkəzində, Xankəndi şəhərində Vətən müharibəsində qələbəmizin 3-cü ilönümü münasibətilə hərbi paradın keçirilməsi hər birimizdə qürur doğurdu. İllərdən bəri gözlədiyimiz, həsrətində olduğumuz tarixi günün sevincini yaşadıq.

Hərbi paradı fərəh dolu baxışlarla izlədik. Azərbaycan Ordusunun və başqa güc strukturlarının şəxsi heyəti Xankəndinin baş meydanında düzülmüşdü. Gözəl, yaddaqalan bir mənzərəyə şahidlik edirdik. Meydandakı sırada dayanan hərbçilər bir müddət əvvəl Qarabağın erməni işğalçılardan azad olunması uğrunda vuruşmuşdular. Yurdumuzun azadlığı üçün bütün çətinliklərə sinə gərmişdilər. Döyüşlərdə böyük qəhrəmanlıq və hünər göstərərək düşməni məhv etmiş, yağıları torpaqlarımızdan qovmuşdular. Bu gün isə alınaçıq, başıuca uğrunda vuruşduqları Qarabağda hərbi paradda iştirak edirdilər.

Sırada dayanmış hərbi qulluqçular orkestrin ifa etdiyi qəlbləri riqqətə gətirən marşların sədaları altında nizami addımlarla Müzəffər Ali Baş Komandan İlham Əliyevin qarşısından keçirlər. Təntənəli addımlarla gedən hərbçilər əllərində həmişə öpüb gözlərinin üstünə qoyduqları üçrəngli bayrağımızı da aparırlar. Həm hərbi paradı qəbul edən Müzəffər Ali Baş Komandan İlham Əliyev çox qürurlu görünür, həm hərbçilərin əllərindəki bayraq, həm də əsgərlər. Bu, belə də olmalıdır, çünki bu gün Zəfər Günüdür, Qələbə Günüdür.

Çoxdan bəri gözlədiyimiz qürurverici səhnələrə kövrək hisslərlə baxdıq. Qanlı döyüşlərdən qalib çıxmış müzəffər ordumuzun tarixi torpaqlarımızda hərbi paradını izləmək çox sevindirici idi. Biz bu günü, bu anı illərdən bəri gözləyirdik. Artıq Azərbaycan Ordusunun zabit və əsgərləri cəsarət və hünərləri ilə xalqımızın arzularını, xəyallarını reallığa çeviriblər.

Azərbaycan xalqı 8 Noyabr - Zəfər Günündə tarixi anlar yaşadı. Qələbəmizin, zəfərimizin təsdiqi olan hərbi parad Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Daim qürurla xatırlanacaq.

***Vahid MƏHƏRRƏMOV***





# Zəfərin nidası, Qələbənin möhürü



## 10 noyabr üçtərəfli tarixi Bəyanat həm də Azərbaycanın suverenliyinin tam təmin edilməsini şərtləndirən sənəd oldu

Vətən müharibəsində əldə etdiyimiz Böyük Qələbənin, Zəfər Gününün üçüncü ilini böyük coşqu ilə qeyd edirik. Qarabağ və Şərqi Zəngəzurun hər yerində dalğalanan bayrağımız ürəyimizi dağa döndərir. Dünya suverenliyini tam təmin etmiş Azərbaycanın gücünə, qüdrətinə şahidlik edir. Müstəqillikdən sonra ilk dəfədir ki, bütöv, vahid Azərbaycanda yaşayırıq. Bu, Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir.

Bu gün hər kəs Azərbaycanın tarixi Zəfərindən, 3 il öncə dünya hərb tarixində ilk dəfə reallaşdırdığı XXI əsrin "smart müharibə"sindən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətindən, qüdrətli ordusunun mübarizliyindən danışır, müzakirələr, təhlillər aparır.

Həqiqət budur ki, Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızın azad edilməsini cəmi 44 gün ərzində həyata keçirdiyi sürətli hərbi əməliyyatlarla həll etdi. 30 il torpaqlarımızda möhkəmlənən, "keçilməz" istehkamlar quran Ermənistanın yaratdığı bütün miflər darmadağın edildi. Ordusunun məhv edildiyini görən rəsmi İrəvan ağ bayraq qaldıraraq təslim olduğunu bəyanladı və dünyanın humanist lider kimi tanıdığı İlham Əliyev məğlub Paşinyanın yalvarışını qəbul etdi. Noyabrın 10-da İkinci Qarabağ müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatdığını rəsmiləşdirən üçtərəfli sənəd imzalandı.

Savaşın gedişində hər gün xalqa xoş xəbərlər verən Müzəffər Ali Baş Komandan bu dəfə Ermənistanın hərbi kapitulyasiyasının müjdəsini çatdırdı: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli Bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar".

10 noyabr tarixli Bəyanatın imzalanması Ermənistanın hərbi kapitulyasiyası demək idi. Bəyanat uzun illər davam edən işğala son qoydu. Sənədin imzalanması ilə münaqişənin hərbi mərhələsi başa çatdı. Ağdam, Laçın, Kəlbəcər rayonları qan tökülmədən qaytarıldı, status-kvo, "Dağlıq Qarabağ" adlı ərazi vahidi ləğv edildi.

Əlbəttə ki, bu bəyanat imzalanarkən Ermənistanın heç bir şərti qəbul edilmədi. Bu həm də Azərbaycan Prezidentinin diplomatik uğuru idi. Məğlub Paşinyan Qalib İlham Əliyev qarşısında nəsə söyləməyə, şərt kəsməyə cəhd edə də bilməzdi. Heç Paşinyanın həmin sənədi harada imzalaması da bəlli deyildi. Xalqa müraciətində İlham Əliyev bu məsələyə də toxunaraq dedi ki, Ermənistan baş nazirinin bu hərəkəti başadüşüləndir: "Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalayacaq. Öz xoşu ilə bunu imzalamır. Bunun - "dəmir yumruğ"un hesabına imzalayır!"

Müharibə başa çatdıqdan sonra hər iki tərəfin üzərinə düşən öhdəliklərin icra prosesi göstərdi ki, məğlub Ermənistan yenə də çirkin niyyətindən əl çəkmir. Bu ölkə nəinki öhdəliklərini yerinə yetirmir, hətta Qarabağdakı separatçıları silahlandırır, hərbi təxribatların törədilməsinə şərait yaradır və bununla da sülh müqaviləsini imzalamamaq üçün guya vaxt qazanır. Azərbaycan Laçın sərhəd-buraxılış məntəqəsini yaratdıqda isə siyasi şantajlara başlayaraq dünya birliyində ölkəmizin "humanitar fəlakət" yaratması ilə bağlı rəy formalaşdırmağa cəhd etdi. Bütün cəhdlərində iflasa məhkum olan rəsmi İrəvan havadarlarının dəstəyinə baxmayaraq, heç nəyə nail ola bilmədi. Bu ilin sentyabrında törətdiyi hərbi təxribatlar isə ədalətin tam bərqərar olunması ilə nəticələndi. Müzəffər Sərkərdə kimi İlham Əliyevin hazırladığı mükəmməl plan cəmi 23 saat bəs elədi ki, cinayətkar hərbi rejim ağ bayraq qaldırsın. Bu uğurlu antiterror tədbirlərindən sonra cinayətkar rejim özünü buraxdı və bununla da Azərbaycan ərazisində "boz zona" deyilən məkan qalmadı. Müstəqil Azərbaycanın suverenliyi tam təmin edildi.

Məhz son 3 ildə baş verən bu proseslər onu deməyə əsas verir ki, bütün uğurları şərtləndirən sənəd noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat oldu. Çünki onun imzalanması ilə mühüm siyasi, diplomatik, iqtisadi və hərbi uğurların əsası qoyuldu:

- *Ağdam, Laçın, Kəlbəcər rayonları, Laçın şəhəri, Zabux və Sus kəndləri qan tökülmədən qaytarıldı;*
- *Azərbaycanla Türkiyə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoyan Şuşa Bəyannaməsi imzalandı;*
- *Azərbaycan tərəfindən sülh müqaviləsi üçün əsas olan beynəlxalq hüququn beş əsas prinsipi irəli sürüldü və Ermənistan tərəfindən qəbul edildi;*
- *Sərhədlərin delimitasiyası ilə bağlı müvafiq komissiyalar yaradıldı;*
- *Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 6-da Praqada Aİ Şurasının prezidenti, Fransa Prezidenti və Ermənistanın baş naziri ilə görüşlərinin nəticəsində imzalanmış Bəyanatla Azərbaycanın ərazi bütövlüyü tanındı;*
- *Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdış başlandı;*
- *2023-cü il aprelin 23-də Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması ilə Azərbaycanın sərhəd, ərazi bütövlüyü təmin olundu;*
- *2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa edildi.*
- *2023-cü il oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Ağdərədə, Xocalıda, Xocavənd şəhərinin mərkəzində və Xankəndidə bayrağımızı ucaltdı və bununla da bütün Qarabağ və Şərqi Zəngəzurda müqəddəs simvolumuzun əbədi dalğalanacağının nidası qoyuldu.*

Əlbəttə ki, bütün bu uğurların memarı Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyevdir. Şanlı Zəfərimizdən sonra nüfuzu daha da yüksələn Prezidentimizin yaratdığı yeni reallıqlara qarşı çıxan, regionda sülhün bərqərar olunmasını istəməyən qüvvələr çox çalışdılar ki, Azərbaycanın öz ərazisi üzərində tam suverenliyini bərpa etməsinə imkan verməsinlər və 2020-ci ilin nəticələri ilə məhdudlaşmağa məcbur etsinlər. Amma fəaliyyəti boyunca "nəyi nə zaman və necə" etməyin ən yaxşı nümunələrini göstərən İlham Əliyev bu tarixi missiyanı məntiqi sonluğuna çatdırdı - Azərbaycanın suverenliyini tam bərpa etdi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

12 Noyabr Konstitusiya Günüdür

# Konstitusiyamız artıq bütün Azərbaycan ərazisində qüvvədədir

## Böyük Zəfər dövlətimizin konstitusion əsaslarını da tam təmin etdi



Noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun 28-ci ili tamam olur. 1995-ci ilin həmin tarixində keçirilən ümumxalq referendumunda xalqımız özünün zəngin tarixi və dövlətçilik ənənələrinə sadiq qalaraq, cəmiyyətimizin, hər bir vətəndaşımızın əmin-amanlığının, firavanlığının təmin olunmasını arzu edərək və suveren hüququndan istifadə edərək müstəqil dövlətimizin konstitusiyasının qəbul edilməsinə səs verdi. Konstitusiyanın qəbulu xalqımızın Ulu Öndəri Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən sayılır.

### Heydər Əliyevin müəllifi olduğu mütərəqqi konstitusiya

Konstitusiya hər bir ölkədə əsas qanun kimi ali hüquqi qüvvəyə malikdir. Dövlətin təməl prinsiplərini, siyasi, hüquqi və iqtisadi əsaslarını təsbit edən bu ali sənəd vətəndaşların hüquq və azadlıqlarına zəmanət verir, ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirir. Bütövlükdə, cəmiyyət həyatının başlıca sahələrində dövlət siyasətinin ümumi istiqamətlərini təsbit edən konstitusiya ali hüquqi xüsusiyyətləri ilə hər bir xalqın və dövlətin həyatında xüsusi rola malikdir. Konstitusiya həm də öz məzmunu ilə dövlətin siyasi quruluşunun, sosial-iqtisadi və hüquqi əsaslarının aynasıdır.

Məlum olduğu kimi, 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda ölkəmizin yeni Konstitusiyasının hazırlanması ilə bağlı bənd var. Bu sənədin 32-ci maddəsində göstərilir ki, Konstitusiya Aktı Azərbaycanın yeni konstitusiyasının hazırlanması üçün əsasdır. Lakin 1993-cü ilə qədər Azərbaycanda hakimiyyətdə olan iqtidarlar bu barədə heç düşünmədilər də.

Müstəqil respublikamızın yeni konstitusiyanın qəbulu yalnız xalqımızın Ulu Öndəri Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra həyata keçdi. Həmin vaxt xalqımızın Ümummilli Lideri dəfələrlə konstitusiya layihəsinin geniş müzakirəsini keçirdi. "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır", - deyə Heydər Əliyev həmin müzakirələr zamanı bildirmişdi. Təsadüfi deyil ki, Ulu Öndər layihənin hazırlanması zamanı onun hər bir müddəasına respublikamızın demokratik inkişafı və imici baxımından xüsusi həssaslıqla yanaşmışdı.

1995-ci il noyabrın 12-də keçirilən referendumda konstitusiyanın qəbul edilməsi Azərbaycanın müasir tarixinin mühüm siyasi hadisəsinə çevrildi. Tariximizə Heydər Əliyev Konstitusiyası kimi də daxil olan Əsas Qanunun qəbul edilməsi respublikamızın həyatında yeni dəyişikliklərə yol açdı. Konstitusiyanın qəbulu müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində mühüm addım oldu.

"1995-ci ildə referendum yolu ilə qəbul edilmiş konstitusiya Azərbaycan xalqının inkişafı naminə müasir, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu mərhələsinə keçidi təsbit etmişdir. Bu tarixi sənədin müəllifi xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur", - deyə Prezident İlham Əliyev bildirmişdir.

### Konstitusiya Gününü qürur hissi ilə qarşılayırıq

Azərbaycan Konstitusiyasının qəbulundan sonra ötən illərin mənzərəsi təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı, ötən 20 ildə Prezident İlham Əliyevin layiqincə davam etdirdiyi siyasi kurs konstitusiyamızın preambulasında yer alan demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlərin həyata vəsiqə almasını təmin edib.

Konstitusiyamızın preambulasında yer alan niyyətlərdən biri də Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasıdır. 2020-ci ilin Vətən müharibəsində qazanılan tarixi Zəfərlə və bu ilin 19-20 sentyabr tarixlərində keçirilən antiterror tədbirləri nəticəsində Qarabağdakı erməni separatizminə son qoymaqla Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev konstitusiyamızdakı bu niyyətin tam reallaşmasını təmin etdi.

Konstitusiyamızın 11-ci maddəsinin birinci bəndində qeyd olunur ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Vətən müharibəsindəki qələbə ilə Ana Qanunumuzun bu müddəası təmin edildi. Ərazi bütövlüyümüzün təminatçısı kimi Prezident İlham Əliyev bu konstitusion normanı qətiyyətlə reallaşdırdı. Azərbaycan dövlətinin və xalqımızın pozulmuş konstitusion hüquqlarını tam bərpa etdi.

Konstitusiyada Azərbaycan vətəndaşlarının bütün hüquqları ən demokratik meyarlara uyğun təsbit olunub. Lakin torpaqlarımızı işğal edən Ermənistan yüz minlərlə vətəndaşımızın doğma yurdda təhlükəsiz yaşamaq, azadlıq, mülkiyyət, mənzil toxunulmazlığı və digər konstitusion hüquqlarını pozmuşdu. Şəhər və kəndlərimizin işğaldan azad edilməsindən sonra qarşılaşdığımız acınacaqlı mənzərələr, evlərin daşlarına qədər sökülməsi, təbii sərvətlərimizin talan edilməsi xalqımızın hüquqlarının pozulmasının ayrı-ayrı nümunələridir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərinin nəticəsində Azərbaycan dövləti öz vətəndaşlarının Ermənistan tərəfindən pozulmuş konstitusion hüquqlarını qətiyyətlə bərpa edir.

Bu gün xalqımız bütün milli bayramlarını, əlamətdar tarixlərini, o cümlədən Konstitusiya Gününü daha böyük coşqu və qürur hissi ilə qeyd edir. Ona görə ki, indi bütün torpaqlarımız azaddır, ərazi bütövlüyümüz bərpa edilib. Tarixi zəfərimiz dövlətimizin konstitusion əsaslarını da tam təmin etdi. Artıq konstitusiyamızın normaları bütün Azərbaycan ərazisində qüvvədədir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Bayraq Günün mübarək, qalibiyyət bayraqlı Azərbaycan!

**Dövlət Bayrağı Günü... Hər gün əzizlədiyimiz, varlığından qürur və şərəf duyduğumuz müqəddəs bayrağımıza sevgi və ehtiramın təntənəsi. Xalqımızın və dövlətçiliyimizin tarixinə, milli-mənəvi dəyərlərimizə ali münasibət bəsləyən Prezidentimiz İlham Əliyevin qərarı ilə artıq 14 ildir qeyd etdiyimiz əziz bayram.**

105 il əvvəl qurulan, lakin ömrü çox qısa olan Azərbaycan Xalq Cümhuriyyətinin - Şərqdə ilk demokratik respublikanın, arzusu ürəyində qalan, amallarına sədd çəkilən babalarımızın yadigarıdır üçrəngli bayrağımız. Ulu Öndərimiz Heydər Əliyevdən əmanətdir bizə. Məhz 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlar müstəqillik mübarizəsi tariximizin ən əlamətdar hadisələri sırasına yazıldı. Ümummilli Liderin sədrliyi ilə keçirilən iclasda onun təşəbbüsü və təklifi ilə qəbul edilən tarixi qərarlardan biri müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olması barədə idi. Qərarda həmçinin Azərbaycan Respublikasının Ali Qanunverici Orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrinə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edildi. Bax beləcə, 33 il əvvəl, sovet hakimiyyətinin hələ "yaşadığı" bir vaxtda Heydər Əliyev üçrəngli bayrağımızı xalqımıza, Azərbaycanımıza qaytardı. Heç üç ay keçmədən - 1991-ci il fevralın 5-də respublika Ali Soveti üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi təsdiq olunması barədə qərar qəbul etdi.

O vaxtdan bəri də çox keşməkeşlərdən keçdi bayrağımız. Namərd qonşumuzun olmazın vəhşiliklərinin, ona dəstək verənlərin namərdliyinin şahidi oldu. Qaçqınlı-köçkünlü günlərimizi bərabər yaşadı bizimlə. Sapı özümüzdən olan baltaların dağıtdığı, talan etdiyi iqtisadiyyatımızı gördü... Yağı əlində qalan yurd yerlərimizin həsrətini bizimlə bərabər çəkdi... Lakin sınmadı, əyilmədi bayrağımız.

Etibarlı əllər tutmuşdu onu. Biz ondan, o da bizdən güc aldı. Ulu Öndərimizin uzaqgörənliklə göstərdiyi yolla irəlilədik. Müdrik liderimiz İlham Əliyevin ardınca getdik, yumruq kimi birləşdik, günü-gündən gücləndik. Elə bir güclü Azərbaycan qurdu ki Prezidentimiz, elə bir yenilməz ordu yaratdı ki, Müzəffər Ali Baş Komandanımız, elə bir gənc nəsil yetişdirdi ki dövlətimizin başçısı, cəmi 44 günə illərdir sinəsini döyüb "qürurlanan" yağıya diz çökdürdü. Torpaqlarımızda həmişəlik at oynadacağını düşünən düşmən yurdumuzda bərqərar etməyə çalışdığı bayrağını ayaq altında, silahını döyüş meydanında atıb qaçdı.

Biz isə müqəddəs üçrəngli bayrağımızla döndük öz doğma torpağımıza, yurd-yuvamıza. Prezidentimiz Şuşada, Zəngilanda, Füzulidə, Kəlbəcərdə, Xankəndidə, Xocalıda, bir sözlə, işğaldan azad edilmiş torpaqlarımızın hər tərəfində bayrağımızı ucaltdıqca göz yaşlarımızı saxlaya bilmədik. Bu dəfə sevinc göz yaşlarını...

İndi Qarabağın və Şərqi Zəngəzurun elə bir kəndi və şəhəri yoxdur ki, orada Azərbaycan bayrağı dalğalanmasın. Düşmənə gözdağı olan Azərbaycan bayrağı!

Müqəddəsdir bu bayraq. Bizimlə bərabər odlardan-alovlardan keçdiyi üçün. Vətən torpağı uğrunda həyatını qurban verən igidlərimizi son mənzilə yola salıb şəhid evlərində qəhrəmanlıq rəmzi kimi qorunaraq nəsillərə yadigar qaldığı üçün. Bizi qələbədən-qələbəyə apardığı üçün. Daha işıqlı sabahlara doğru gedən yolumuzda yol yoldaşımız olduğu üçün...

Bayraq Günün mübarək, qalibiyyət bayraqlı Azərbaycan!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan haqq-ədaləti təmin etdi

## Baxmayaraq ki, bəzi Qərb dövlətləri buna cidd-cəhdlə mane olmaq istəyirdi

**Tarixdə mühüm əhəmiyyət daşıyan hadisələrin müstəsnalığı həm də ondadır ki, aradan zaman keçdikcə onların mahiyyətini, böyüklüyünü, daşıdığı mənanı daha aydın şəkildə dərk edə bilirsən. Bu da təbiidir.**

Çünki həmin hadisələr bir tərəfdən daha sonrakı proseslərə də təsir göstərir, yeni reallıqlar yaradır və bu reallıqları bütöv bir mənzərə kimi görmək olur. Digər tərəfdən isə böyük hadisələrin tarixi mahiyyətinin hərtərəfli təhlili üçün yetərincə zamanın yaranır. Bilavasitə içində olduğun, hansısa epizodlarında iştirak etdiyin olayların doğurduğu hiss-həyəcan, emosiyalar yerini daha çox analitik düşüncəyə verir. Beləliklə, bir vaxtlar baş verənlərə indi tarix kimi yanaşa bilirsən.

Bu baxımdan, 8 Noyabr Zəfər Günü böyük əlamətdarlıq daşıdığı üçün artıq öz tarixi qiymətini alıb. Hərbi əməliyyatların hələ davam etdiyi 2020-ci ilin 8 noyabr günü, bu tarix qeyrət qalamız olan Şuşanın işğaldan azad olunduğu, Şuşa həsrətimizin bitdiyi gün idi. Onda çoxlarımızda belə bir düşüncə vardı ki, proseslərin həminki mərhələsi üçün əsas hədəf Şuşadır. Hələ o günə bir müddət qalmış Ali Baş Komandan İlham Əliyev xarici media qurumlarından birinə "Şuşasız bizim işimiz yarımçıq qalar", - deyə bəyan etmişdi. Şuşanın azad olunmasından sonra Ermənistan faktiki kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı. Hərbi əməliyyatlar dayandı. Beləliklə, Şuşanın azad olunduğu gün Zəfər Günümüz kimi tarixə düşdü və ictimaiyyətin istəklərinə uyğun şəkildə tariximizdə bu statusla da rəsmiləşdi. 2023-cü ildə aparılmış 23 saatlıq antiterror əməliyyatı nəticəsində Qarabağdakı separatçı yuvasının dağıdılmasından, Xankəndidə və başqa əzəli-əbədi yurdlarımızda dövlət bayrağımızın ucaldılmasından sonra isə Zəfər Günü Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün və qüdrətinin rəmzi kimi daha bir möhtəşəm tarixi dəyər qazandı.

Xalq olaraq biz XX əsrin əvvəlində zor gücünə əlimizdən alınmış istiqlalımızın bərpası uğrunda mübarizəyə ötən əsrin 80-ci illərinin sonlarında Qarabağ münaqişəsi mühitində başlamışdıq. İstiqlalımızın bərpası da, müstəqilliyimizin ilk onillikləri də bu münaqişə mühitində keçmişdi. Bu yolda hər nə qədər böyük nailiyyətlər qazansaq belə, yenə də həyatımızda böyük bir natamamlıq vardı. Çünki Azərbaycanın ərazi bütövlüyü tam deyildi. Təcavüzkar qonşumuz respublikamızın təxminən 20 faizini işğal altında saxlayırdı. Dünya ictimaiyyəti buna göz yumur, Azərbaycanın beynəlxalq hüquqla təsbit edilmiş qanuni haqlarına, BMT kimi ali bir qurumun işğalçı Ermənistan ordusunun torpaqlarımızdan çıxması haqqında qətnamələrinə məhəl qoyulmurdu. Ərazi bütövlüyümüzün natamamlığı, ölkə və cəmiyyət həyatının başqa sahələrində də problemlər yaradırdı. Azərbaycan dövləti gələcəklə bağlı qarşıya aydın strateji hədəflər qoymuşdu. Bu hədəflərə doğru ardıcıl addımlar atılır, bir-birini tamamlayan mühüm nəticələr əldə olunurdu. Amma gələcəklə bağlı qeyri-müəyyənlik də vardı. Hər birimiz fərqində idik ki, torpaqlarımızın işğaldan azad edilməsi üçün nə vaxtsa hərb yoluna əl atıla bilər. Azərbaycan dövləti məsələnin hər iki tərəfdən insan itkilərinə yol vermədən həlli üçün sülh danışıqlarını illərlə davam etdirdi, məsələnin müharibəsiz həllinə gətirə biləcək bütün imkanları dəyərləndirdi. Ermənistan isə Azərbaycanın onillər boyu sadiq qaldığı sülh danışıqlarından qaçdıqca, işğalçı mövqeyində qaldıqca, öz davranışları ilə danışıqları mənasızlaşdırdıqca artıq hərbdən başqa yolun qalmadığı görünürdü. Müstəqillik yolumuzun yeni bir mərhələsinə daxil olmaq, gələcəyə doğru daha əmin addımlarla irəliləmək üçün bu məsələnin birdəfəlik tamamlanması, münaqişə səhifəsinin bağlanması lazım idi. Müzəffər Ali Baş Komandan İlham Əliyev problemi şanlı ordumuzun gücü ilə həll etdi. Azərbaycan dövləti düşməni torpaqlarımızdan qovub BMT qətnamələrinin icrasına nail oldu. 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli Bəyanat Ermənistanın faktiki kapitulyasiya aktı oldu. Beləliklə, Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu.

### Hər addımın öz vaxtı, vədəsi var

Həmin vaxtlar bəzi dövlətlərdə proseslərin sonrakı gedişi ilə bağlı müəyyən tərəddüdlər vardı. Düşünürdülər ki, Azərbaycan 2020-ci ilin 10 noyabrında üçtərəfli Bəyanatla təsbit edilmiş status-kvonu dəyişməyə cürət etməyəcək. Şuşanın azad edilməsi maksimum nəticə olacaq. Bu mövqe beynəlxalq aləmdəki erməni təəssübkeşliyi, ermənilər yaşayan Azərbaycan ərazilərində gələcəkdə hər hansı əməliyyatlar keçirməyə və bu ərazilər üzərində Azərbaycanın nəzarətinin bərpasına imkan verməyəcəyi barədə proqnozlarla izah edilirdi. Əslində, bu proqnozlar əsassız da deyildi. Proseslərin o dövrdəki gedişində əsasən ABŞ və Qərb ölkələrinin tutduğu mövqeyi hər kəs müşahidə edir, verilən bəyanatları izləyirdi. Bütün bunlar da gələcək barədə belə bədgüman proqnozlar üçün ciddi əsaslara çevrilirdi.

Bir çoxları isə Azərbaycanın ərazi bütövlüyünün bərpası arzusunun, bu günü tez görmək istəyinin diktəsi ilə proseslərin çox sürətlə baş verməsinə can atırdılar. Azərbaycan Prezidentinin verdiyi qərarlar, həyata keçirdiyi siyasətin ardıcıllıqla bir-birini tamamlaması və bütün bunların möhtəşəm nəticələri isə göstərdi ki, tarixdə hər bir addımın öz yeri, vaxtı-vədəsi var.

2022-ci ilin sonu 2023-cu ilin əvvəllərində Azərbaycanın hüquq müdafiə təşkilatları Ermənistanın ölkəmizdə ətraf mühitə qarşı yaratdığı təhdidlərlə bağlı Laçın yolu üzərində etiraz aksiyasına başlayanda, müharibədən sonrakı dövrdə həmin ərazilərdə qalan Ermənistan Silahlı Qüvvələrinin qalıqlarının ardıcıl təxribatlarına Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri aparılanda bəzi region ölkələri və Qərb dairələrinin məsələnin mahiyyətinə varmadan, heç bir araşdırma aparmadan verdikləri bəyanatlar isə dövlətimizə qarşı təzyiq cəhdindən başqa bir şey deyildi. Əslində, bu reallıqlar 30 il ərzində guya münaqişənin həllinə dəstək verirmiş kimi görünən xarici dairələrin iç üzünü bir daha göstərirdi. Yenə də aydın olurdu ki, ABŞ, Avropa İttifaqı, Fransa və başqa dövlətlər 30 illik işğal dövründə münaqişənin tam bitməsində, regionda təhlükəsizlik, sabitlik və inkişaf mühitinin başlanmasında maraqlı olmayıblar. Onlara məsələnin qeyri-müəyyənliyi daha çox sərf edib. Azərbaycanın 44 günlük müharibədəki Zəfərindən sonra məsələnin müəyyən hissəsinin qeyri-müəyyənlik içində qalması onların marağında olub.

ATƏT-in həyatını çoxdan başa vurmuş Minsk qrupunun reanimasiyasına uğursuz cəhdlər, yenidən uzun-uzadı danışıqlar prosesinə start verilməsi, müxtəlif üsullarla Azərbaycana göstərilən təzyiqlər buna dəlalət edirdi. Bəlli ki, bu da təsadüfi deyildi. Vəziyyətin belə qalmasında maraqlı olanlar ənənəvi "parçala və hökm sür" prinsipini qoruyaraq regionda öz oyunlarını oynamağa can atırdılar. Belə bir yanaşma onlara bir çox cəhətlərinə görə mühüm geosiyasi əhəmiyyət kəsb edən Azərbaycana qarşı real təsir və təzyiq mexanizmlərini saxlamağa imkan yaradırdı. Ona görə də bütün bu prosesin məntiqi ondan ibarət olmuşdur ki, Qərb ermənilərin Azərbaycanda yaşaya bilməyəcəyi və buna görə də ayrılmasının zəruriliyini ehtiva edən hüquqi proseduru işə sala bilsin.



Eyni zamanda o da hiss olunurdu ki, Qərb dairələri təkcə sözçülüklə məşğul olmurlar. Onlar öz niyyətlərini praktik şəkildə də həyata keçirərək istədiklərinə nail olmaqdan ötrü arsenallarındakı bir çox ənənəvi vasitələrdən istifadə edirdilər. Azərbaycan dövlətinə, şəxsən Prezident İlham Əliyevə qarşı yönələn təzyiqlər, BMT, Avropa Parlamenti, Avropa Şurası kimi beynəlxalq mexanizmlərin basqı potensialından yararlanmaq cəhdləri, ölkəmizə qarşı sanksiyaların tətbiq ediləcəyi ilə bağlı hərbə-zorbalar buna dəlalət edirdi. Onlara elə gəlirdi ki, bütün bunlarla Azərbaycan Prezidentini tutduğu qətiyyətli mövqeyindən çəkindirmək, dövlət rəhbərimizin planlarını pozmaq, Azərbaycanın öz ərazisi üzərində tam suverenliyini bərpa etməsini əngəlləmək, ölkəmizi 2020-ci ilin noyabrında əldə edilmiş nəticələrlə kifayətlənməyə məcbur etmək mümkündür.

Amma onlar unudurdular ki, Azərbaycan Prezidentinin qətiyyəti, iradəsi, uzaqgörənliyi onların fitnə-fəsadlarından qat-qat güclüdür. Onun da fərqində deyildilər ki, dövlətimizin başçısı İlham Əliyev bu gücü hər hansı dairələrdən deyil, böyük bir xalqın yekdil dəstəyindən, Azərbaycanın milli maraqları naminə hər cür fədakarlığı göz qırpmadan hazır olan milyonlarla həmvətənimizin mənəvi enerjisindən alır. Müxtəlif vasitələrlə Azərbaycana, dövlət rəhbərimizə təzyiq göstərib onu mövqeyindən çəkindirməyə çalışanlar düşünmürdülər ki, verdiyi bütün sözləri tutan, başladığı işi heç zaman yarımçıq qoymayan, eyni zamanda hər bir addımın, qərarın vaxtını, vədəsini də dəqiqliklə bilən Azərbaycan Prezidenti ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin Vətən müharibəsindən sonra da natamam qalmasına heç zaman imkan verməyəcək. Suverenlik və ərazi bütövlüyü anlayışları Vətən müharibəsinin nəticələri ilə məhdudlaşmayacaq. Beləliklə, 8 noyabr zəfərimiz, qələbədən sonrakı 3 il ərzində həyata keçirilən ardıcıl siyasət və görülən bütün işlər ümumi bir prosesin davamı olaraq 2023-cü il sentyabrın 20-də öz məntiqi sonluğuna çatdı. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün basqı və təhdidlərə rəğmən böyük uzaqgörənliklə, praqmatik şəkildə, barışmaz prinsipiallıq və qəti iradə nümayiş etdirərək Xankəndidə Azərbaycanın dövlət bayrağını ucaltdı. "Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq". Prezident İlham Əliyevin əzəli-əbədi yurdumuzda bayrağımızı qaldırdığı gün səsləndirdiyi bu kəlmələr Azərbaycanın həm indiki, həm gələcək nəsilləri üçün müqəddəs bir anddır. Azərbaycan xalqı bundan sonra heç bir zaman bədnam qonşularımızın müxtəlif separatizm və işğal cəhdləri ilə başımıza yeni müsibətlər açmasına imkan verməyəcək. Ümummilli Lider Heydər Əliyevin ötən əsrin 80-ci illərinin sonlarında hakimiyyət rəhbərliyindən uzaqlaşdırılmasını, proseslərə müdaxilə üçün səlahiyyətlərinin qalmamasını fürsət bilən ermənilərin mənfur planlarını işə saldıqları və Azərbaycanın ovaxtkı naşı, təsadüfi rəhbərlərinin öz səriştəsizlikləri ilə onlara bu imkanı yaratdıqları dövrün yanlışları bir daha təkrarlanmayacaq.

İşğal olunmuş torpaqlarımızı azad görmək Ulu Öndərin ən böyük arzusu idi. Çıxışlarını dinləyəndə bu münaqişənin həlli ilə bağlı itirilmiş fürsətlərdən, problemin qarşısını vaxtında almamaqdan dolayı məyusluğunu hər zaman hiss etmək olardı. Ulu Öndər hələ 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəldiyi ilk illərdən sonralara, fəaliyyətini Moskvada daha yüksək vəzifələrdə davam etdirdiyi illərə qədər zaman-zaman baş qaldıran bu iddiaların qarşısını məharətlə ala bilirdi. Erməni məkrinin, hiyləsinin geniş yayılmasına imkan vermirdi. Ortaya çıxan separatizm meyillərini ən optimal üsullarla məhdudlaşdırırdı. Eyni zamanda gələcəkdə bu cür meyillərin yayılmaması üçün lazımi tədbirlər görürdü. Amma 1988-ci ildə Heydər Əliyevin proseslərə təsir imkanları məqsədli şəkildə məhdudlaşdırılmışdı. Yaranmış vəziyyəti fürsət bilən separatçıların əl-qolu açılmışdı.

Münaqişənin insan itkilərinə yol vermədən sülh yolu ilə həlli Ulu Öndərin istəyi idi. Bununla belə müdrik dövlət adamı onun da fərqində idi ki, bu cür münaqişələr ətrafında vəziyyəti dəyişmək üçün bəzən güc tətbiqi qaçılmaz olur. Ona görə də ordu quruculuğuna xüsusi diqqət yetirirdi. Azərbaycan Prezidenti İlham Əliyev də bu kursa hər zaman sadiq qaldı. Sülh danışıqlarını sona qədər davam etdirdi. Münaqişənin dinc yolla həlli üçün bütün imkanları nəzərdən keçirdi, qarşı tərəfə təkliflərini verdi. Hətta 44 günlük Vətən müharibəsinin ən gərgin günlərində, ordumuzun torpaqlarımızı bir-bir azad edib işğalçılardan təmizlədiyi vaxtlarda da yenə sülh variantını aktuallığında saxladı.

Azərbaycanın müstəqilliyinin daimiliyi, əbədiliyi, dönməzliyi... Bu, Ümummilli Liderin ülvi amalı idi. Ulu Öndərin gələcəyə ümidi xalqımızı bu amal ətrafında səfərbər edirdi. Bu böyük dövlət xadimi bir çox çıxışında, Qarabağın, Şərqi Zəngəzurun müxtəlif rayonlarından olan məcburi köçkünlərlə görüşlərində torpaqlarımızın gec-tez azad olunacağını, insanlarımızın doğma yurdlarına qayıdacaqlarını inamla söyləyirdi. İndi Ulu Öndərin o tarixi görüşlərin videolentlərindən ucalan qətiyyətli səsi bu inamın, bu əminliyin təntənəsi kimi eşidilir.

### İnamın təntənəsi və yeni bir gələcək qarşısında

Azərbaycanın yaratdığı tarixi reallıqlar Prezident İlham Əliyevin hər zaman gələcəyə baxan, onilliklər sonranı düşünən və bütün planlarını strateji məqsədlərə uyğun quran nə qədər güclü Lider olduğunu, zəmanəmizin ən parlaq liderlərindən biri kimi adını dünya tarixinə əbədi yazdığını göstərir.

Bütün bu tarixi reallıqlar, bir neçə günün işi, bir neçə qərarın, layihənin nəticəsi deyil. Bu gün hər anı ilə qürur duyduğumuz gerçək həyatı uzun illər ərzində ölkəmizdə həyata keçirilən bir çox iqtisadi layihələr formalaşdırıb. Buna paralel olaraq siyasi arenada atılan bir çox addımlar yaradıb. Bütün bunlar illər sonra Azərbaycanda tam yeni bir reallığın ortaya çıxmasına yol açıb. Ölkəmizin hərtərəfli inkişafı və dövlət rəhbərimizin apardığı parlaq diplomatiyadan qidalanaraq, uzunmüddətli perspektivə hesablanmış çoxgedişli siyasi kombinasiyanın möhkəm təməllərinə əsaslanaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası kimi mürəkkəb bir məsələnin həllinə imkan verib. Ustalıqla qurulmuş mürəkkəb sxemin hər bir detalını dövlət rəhbərimizin həssaslıqla, incəliklə, demək olar ki, zərgər dəqiqliyi ilə nəzərə alması, hər bir addımda xalqa güvənərək, xalqdan dəstək alaraq bütün dünyanı Azərbaycanın haqlı olduğuna inandırması, bu məsələdə yerbəyerdən bizə əngəl törətməyə çalışan güclərin müqavimətini sındırması və tarixi ədaləti bərpa etməsi böyük bir həqiqətdir. Bu həqiqət dövlətimizin başçısı İlham Əliyevin böyüklüyünün, uzaqgörənliyinin, mahir siyasətçi kimi misilsiz səriştəsinin qayəsini təşkil edir. Lider xüsusiyyətlərinin və keyfiyyətinin daşıyıcısı olan Prezident İlham Əliyev Vətən müharibəsindəki qələbəmizdən sonrakı 3 il ərzində tarixi əhəmiyyət kəsb edən mühüm bir prosesi reallaşdıraraq üzərinə götürdüyü tarixi missiyanı uğurla tamamladı.

2023-cü il sentyabrın 20-də cəmi 23 saat 51 dəqiqə ərzində davam edən əməliyyatla Ermənistan silahlı qüvvələri birləşmələrinin təslim olmaq məcburiyyəti qarşısında qalması, oktyabrın 15-də isə Xankəndidə Azərbaycan bayrağının ucaldılması öz tarixi əhəmiyyətinə görə 44 günlük müharibə və 8 noyabr Zəfər gününə bərabər növbəti parlaq Qələbədir. Bu baxımdan, 2023-cü il sentyabrın 20-də əldə olunan Qələbə siyasi və mənəvi əhəmiyyəti etibarilə Zəfər Gününə bərabərdir və tarixi hadisə kimi onu tamamlayır.

Bütün bu yaşananlar Ümummilli Lider Heydər Əliyevin, zəngin dövlətçilik tariximizin müxtəlif dönəmlərində xalqımızı, dövlətimizi qələbədən-qələbəyə aparmış Cavanşirin, Atabəy Eldənizin, Cahan Pəhləvanın, Şah İsmayıl Xətainin ruhlarının şad olduğu andır. Tarixi missiyanın yeni mərhələləri isə davam edir və önümüzdə açılmış yeni bir səhifədən, yeni bir başlanğıcdan, yeni bir gələcəkdən Azərbaycanın yeni inkişaf reallıqlarını yaradır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Tarixi ədalətin bərqərarı

**Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad etmək üçün ordumuzun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində Ermənistan cəmi 44 günə diz çökdürüldü.**

Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnamələrini Azərbaycan özü icra etdi.

2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycanın hərbi-diplomatik Qələbəsi ilə bitən 44 günlük Vətən müharibəsi nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi.

Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il ərzində yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələri də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirildi.

Nəticədə Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq siyasi platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida" devizi bir ildən sonra, xüsusilə 44 günün ərzində reallığa çevrildi.

Azərbaycan Prezidentinin Vətən müharibəsi ərəfəsində və gedişində 30-a qədər xarici KİV təmsilçilərinə verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir.

Nəticədə bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, Ermənistanın uzun illər yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin Zəfər çalmasını şərtləndirdi.

Bir sıra aparıcı beynəlxalq KİV-ə müsahibələrində Prezident İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər Azərbaycanın bu haqlı mübarizəsinə dəstək verən bir sıra ölkələrin, nüfuzlu siyasi xadimlərin, beynəlxalq ekspertlərin sayını daha da artırıb, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması prosesini genişləndirərək informasiya müharibəsində də tarixi ədalətin Zəfər çaldığını göstərdi.

Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında bildirib ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək və biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və tarixi Qələbəmizin əsası qoyulurdu.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını da darmadağın etdi.

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il fevralın 26-da mətbuat konfransında Dağlıq Qarabağın statusunun ləğvi məsələsinə də "nida" işarəsi qoyaraq bildirdi ki, Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil, onları bu günə salan səbəblərdən biri də məhz o idi, xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar: "Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir". Hər zaman, xüsusilə Münhen Təhlükəsizlik Konfransında Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı. 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Ali Baş Komandan, Prezident İlham Əliyev Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Nəticədə İkinci Qarabağ müharibəsi son yuz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs bayrağımız Azərbaycanın bütün işğaldan azad edilmiş ərazilərində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Hadrutda, Ağdərədə, Xocalıda və Xankəndidə qururla dalğalanır.

Azərbaycan dövləti İkinci Qarabağ müharibəsindən sonra əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, 100 il əvvəl - 1923-cü ildə Qarabağda məqsədli şəkildə pozulmuş inzibati-ərazi bölgüsünü də yenidən təmin etdi. Prezidentin 2021-ci il iyulun 7-də imzaladığı fərmana əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilə tarixi ədalət bərpa edilmiş oldu.

***Elçin ƏHMƏDOV,***
***siyasi elmlər doktoru, professor***



"Gözəl gənc nəsil yetişdirdik - vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad ediblər", - bunu bu il mayın 28-də Laçında həmin rayondan olan sakinlərlə görüşdə Prezident İlham Əliyev dedi.
Dövlət başçısının fəxrlə, qürurla bəhs etdiyi bu gənclərin Vətənə sevgiləri sonsuzdur. Onlar bu sevgi ilə 2020-ci ilin payızında silaha sarıldılar. 44 günlük Vətən müharibəsini Azərbaycan tarixinin şanlı səhifələrinə çevirdilər. Cəbhədə, döyüş meydanlarında elə bir şücaət, cəsurluq, əzmkarlıq göstərdilər ki, müharibənin ilk dəqiqələrindən düşmənin canına qorxu düşdü. Ermənistan silahlı qüvvələri bu igidlərin hünəri, qətiyyəti qarşısında nə qədər aciz olduqlarnı anladılar.

# Dövlətinin, xalqının ümidlərini hər zaman doğruldan gənclik

Otuz ilə yaxın idi ki, Azərbaycanın iyirmi faiz torpaqlarını erməni qəsbkarları əsarət altında saxlayırdılar. Ərazilərinin işğalı faktı ilə barışmayan Azərbaycan dövlətinin mövqeyi hər zaman aydın idi. Dünya tərəfindən qəbul edilən ərazi bütövlüyünün bərpası, qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qayıtması dövlətimizin qarşıya qoyduğu əsas hədəflərdən, ən vacib məsələlərdən idi.

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının zəruriliy bildirilir, düşmən qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması tələb olunurdu. Ancaq Ermənistan açıq-aşkar işğalçılıq mövqeyi tutaraq həmin qətnamələri yerinə yetirmirdi. İşğalçı ölkənin rəhbərləri məsuliyyətsiz çıxışlarında təsdiq edirdilər ki, öz mövelərindən əl çəkmək niyyətində deyillər.

Azərbaycan dövləti məsələni sülh yolu ilə həll etməyə çalışırdı. Prezident İlham Əliyev öz çıxışlarında Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sonadək mübarizə aparacağını bildirirdi. Dövlətimizin başçısı Azərbaycanın nə danışıqlar prosesində, nə də bölgədə gedən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcəyini, heç vaxt torpağımızda ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcəyini dünyaya bəyan edirdi.

Yalnız bir yol vardı. İşğal edilmiş ərazilərimiz işğalçılardan azad edilməli, Ermənistanın qəsbkarlığı, təcavüzkarlığı nəticəsində məcburən köçkün düşmüş azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalı idilər.

Ermənistan faşizm ideologiyasından əl çəkmirdi. İşğalçı ölkənin silahlı qüvvələri Azərbaycan Ordusunun mövqelərini, mülki əhalisinin yaşayış məntəqələrini iriçaplı silahlardan intensiv atəşə tuturdu. Yalanları, boş xülyaları çox sevən Ermənistan rəhbərliyi ordusunun "gücündən" danışır, ağlasığmaz miflər uydururdu.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərini işğal altında saxladıqları otuz ilə yaxın müddətdə ermənilər soydaşlarımızın abad yurdlarını xarabaya çevirmiş, evlərini uçurub dağıtmışdılar. Təbiətinə belə qənim kəsilmişdilər. Meşələrindən ağaclarını qırmış, bulaqlarını qurutmuşdular. Əvəzində Qarabağ və Şərqi Zəngəzur torpaqlarında özlərinə keçilməz hesab etdikləri istehkamlar qurmuşdular.

44 günlük Vətən müharibəsinin ilk günlərindən Azırbaycanın igid övladları erməni yalanlarını ifşa etdilər. Ordusunun mifdən ibarət olduğunu Ermənistan rəhbərliyi də, bütün dünya da gördü. İşğalçı hərbi birləşmələr Müzəffər Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmədi, döyüş meydanından açıq şəkildə qaçmağa başladılar.

Ermənistan 2020-ci ildə Azərbaycanı müharibəyə təhrik edəndə də, hər zaman olduğu kimi, öz gücünə arxalanmırdı. Yenə havadarlarına güvənirdi. Necə deyərlər, əlləri boşda qaldı. Azərbaycanın qəhrəman döyüşçüləri düşməni döyüş meydanlarında məğlub etdilər. 2020-ci il noyabrın 24-də Prezident İlham Əliyev Ağdama səfərində bildirdi ki, Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstdədir: "Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq. Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir".

Hələ 2019-cu il fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında Prezident İlham Əliyev demişdi: "Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir".

Azərbaycan gəncləri hər zaman olduğu kimi, Vətən müharibəsində də doğma xalqının, dövlətinin ümidini, inamını doğrultdu. Vətənpərvər Azərbaycan gəncləri xalqımıza böyük Zəfər sevincini yaşatdılar. Onlar Azərbaycanın haqq savaşında misilsiz qəhrəmanlıq nümunələri göstərdilər. Gənclərimiz Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda gedən şiddətli döyüşlərdə düşmənə tarixboyu unuda bilməyəcəyi dərsi verdilər.

Düşmən düşmənliyindən Vətən müharibəsindən sonra da əl çəkməsə də, işğalçı Ermənistanın silahlı qüvvələri, cinayətkar xunta rejiminin "rəhbərləri" Qarabağda müharibədən sonra da təxribatlar, mina terroru törətməkdə davam etsələr də, sonunda layiq olduqları cavabı aldılar. Bu ilin 19-20 sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərində ermənilər əllərindəki silahı yerə qoyaraq ağ bayraq qaldırıb aman diləmək məcburiyyətində qaldılar. Bundan sonra gərək unutmasınlar ki, Azərbaycanın dövlətinə sadiq, xalqına bağlı cəsur, igid övladlarının qarşısında hər zaman məğlub ola bilərlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Marsel Marselaşen olarsa...

**Başda Fransa olmaqla Qərb ölkələri Qarabağdan könüllü köç edən erməniləri geri qaytarıb onlara siyasi status verilməsini tələb edirlər, baxmayaraq ki, ermənilərin bu "status"u tarixən xalqımızın başına çox bəlalar gətirib. İndi belə çıxır ki, erməni sevdalıları bizi bu bəlaya yenidən sürükləmək istəyirlər.**

Prezident İlham Əliyev bu barədə dəfələrlə ölkəmizin mövqeyini bildirib. Ancaq Ermənistanın arxasında duran qüvvələr bu işdən əl çəkmək istəmirlər, hər vasitə ilə Azərbaycana təzyiq göstərməyə çalışırlar. Hətta Fransa ermənilərin geri qaytarılması barədə yenidən BMT-də məsələ qaldırmaq istəyir.

Qəribəsi isə budur ki, Ermənistanda tamam başqa proseslər baş verir. İndi Ermənistana qayıdan (çünki onların əksəriyyəti Ermənistan vətəndaşlarıdır) ermənilər orada özlərinə xüsusi status tələb edirlər. Ermənistanınsa qurum kimi (qondarma) "Artsax"a qucaq açmaq fikri yoxdur. Belə yerdə deyiblər: "Özünüzə rəva görmədiyinizi bizdən niyə tələb edirsiniz?" Özünü kor və karlığa qoyan Qərb buna nə reaksiya verəcək? Şübhəsiz ki, onu nə eşidəcək, nə də görəcək.

Əvəzində "köçkün" ermənilər bu dəfə Avropa və Amerikaya qaçmaq istəyirlər. Kasıb və perspektivsiz Ermənistanda qalası deyillər ki... Belə olan halda Qərb Azərbaycanın Qarabağ iqtisadi rayonuna kimləri köçürəcək?

Bundan sonra ermənilərin Avropa və Amerikadakı havadarlarına gün kimi aydın olub ki, soydaşları bu "tarixi fürsət"i əldən verməyərək qaçqın statusu alan kimi onlara sarı üz tutacaqlar. Çünki bunu onlar çoxdan etmək istəyirdilər, sadəcə, Qarabağdakı xunta rejimi buna imkan vermirdi. İndi isə həmin rejim gorbagor olub. Fransızlar sevinə bilərlər, "kiçik bacı"ları tezliklə onların ölkəsinə daraşacaq. Ancaq unutmasınlar ki, məsələn, Marsel dönüb Marselaşen ola bilər. Axı bugünkü Fransanı da "qədim ermənilər qurublar". Biz bunu başımıza gələnlərdən yaxşı bilirik. Üstəlik, Rusiya, Gürcüstan, Türkiyə təcrübəsi var. Ermənilər sonuncu torpaq iddialarını Rusiyada irəli sürüblər. Şimali Qafqazdakı bir çox şəhəri öz adlarına çıxıblar.

Bu gün Ermənistan cəmiyyətində sözün həqiqi mənasında hərcmərclikdir, ölkə düşdüyü çətin vəziyyətdən çıxa bilmir. Bir tərəfdən deyirlər ki, Azərbaycan Qarabağda "etnik təmizləmə" aparıb, digər tərəfdən də N.Paşinyan ermənilərin köçürülməsində heç bir zorakılıq olmadığını rəsmən bəyan edir. Gah baş nazir sülhdən danışır, gah da xarici işlər naziri müharibədən. Bir sözlə, başlarını itiriblər.

İndi Ermənistan hakimiyyətinin istədiyi odur ki, havadarlarının köməyi ilə az da olsa ermənini Azərbaycana geri qaytarsın ki, cəmiyyətdə iqtidara olan qəzəb bir qədər azalsın. Bəzi siyasətçilər isə hələ də müharibə yolu ilə Azərbaycan ərazilərini yenidən işğal etmək istəyirlər. Xankəndidəki möhtəşəm Zəfər paradı bu cür müharibə arzusunda olanlara, Ermənistan cəmiyyətinə, eləcə də onların xaricdəki havadarlarına tarixi dərsdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# 8-10 noyabr 2020-ci il ZƏFƏR gündəliyi

**Noyabrın 8-də** döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edir. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulur. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Cəbhədə müqavimət göstərə bilməyən düşmən çıxış yolunu dinc əhalini və mülki infrastrukturu atəşə tutmaqda görür. Keçən gün ərzində Ermənistan silahlı qüvvələri bölmələrinin Tərtər, Bərdə, Ağdam, Ağcabədi və Qubadlı rayonlarının kəndlərini artilleriya atəşinə tutması nəticəsində dinc sakinlər arasında ölən və xəsarət alanlar var, mülki infrastruktura ziyan dəyir.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd T-72 tankı, 2 ədəd D-20 topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili məhv edilir və sıradan çıxarılır.

❖❖❖

Saat 07:40-dan 08:10-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər, Ağdam və Ağcabədi rayonlarının kəndlərini atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür.

❖❖❖



Müzəffər Ali Baş Komandan İlham Əliyev öncə Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edir. Sonra Prezident Şəhidlər xiyabanında xalqa müraciət edir: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!" Prezident bəyan edir ki, Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, tarixi abidələrimizi dağıtdı, məscidlərimizi dağıtdı, təhqir etdi. Azərbaycan dövləti bütün tarixi abidələrimizi bərpa edəcək, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcək: "Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir".

❖❖❖

Saat 14:00 radələrində cəbhənin Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin ön idarəetmə məntəqəsinə hava zərbələri endirilir.

Azərbaycan Hərbi Hava Qüvvələrinin Su-25 həmlə təyyarəsi və PUA-nın tətbiqi ilə endirilən aviasiya zərbələri nəticəsində düşmənin səngər və sığınacaqları dağıdılır, yüksək vəzifəli şəxsləri məhv edilir.

❖❖❖

Saat 16:30-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər və Ağdam rayonlarının kəndlərini atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür.

❖❖❖

Azərbaycan Ordusunun cəbhənin Xocavənd istiqamətində keçirdiyi hücum əməliyyatı nəticəsində düşmənə ağır zərbələr endirilir.

Cəbhənin bu istiqamətində düşmənin mövqelərinə atəşlə zərər vurulur. Ağır itkilər verən düşmən bəzi hədləri ataraq qaçır.

Müdafiə Nazirliyi həmin anları əks etdirən videogörüntülər yayır.

❖❖❖

Birinci vitse-prezident Mehriban Əliyeva



Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edir. Paylaşımda deyilir: "Şuşa işğaldan azad edilib. Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!

İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

**Noyabrın 9-da** cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivlikdə davam edir. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulur. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd T-72 tankı, 1 ədəd D-30 topu, 1 minaatan heyəti, döyüş sursatı ilə dolu bir hərbi yük avtomobili məhv edilir və sıradan çıxarılır.

Döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

❖❖❖

Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tərtər rayonunun Ulu Qarabəy (keçmiş Metsşen) məntəqəsindəki atəş nöqtəsində qərarlaşan minaatan heyəti Azərbaycan Ordusunun mövqelərini atəşə tutur. Bölmələrimiz tərəfindən həmin atəş nöqtəsindəki minaatan heyəti dəqiq zərbə ilə məhv edilir.

Bölmələrimiz tərəfindən Tonaşen məntəqəsi yaxınlığındakı düşmənin 1 ədəd T-72 tankı və cəbhənin Xocavənd istiqamətində hərəkət edən şəxsi heyəti də sərrast atəşlə məhv edilir.

❖❖❖

Şuşa istiqamətində düşmənin mühasirəyə alınan qüvvələrinin məhv edilməsi əməliyyatı davam edir.

Laçın-Şuşa yolu üzərindəki Zarıslı kəndi yaxınlığında mühasirədən çıxmaq məqsədilə bölmələrimizin üzərinə hücum etməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin 1 tankı və 1 PDM-i zərbə PUA-ları ilə məhv edilir.

❖❖❖

Prezident İlham Əliyev özünün "X" hesabında xalqa ard-arda müjdəli xəbərlər verir. İlk paylaşımda deyilir:

"Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖❖❖

Ali Baş Komandanın "X" hesabındakı növbəti müjdəsində qeyd edilir:

"Müzəffər Azərbaycan Ordusu Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, şəhər Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbird, Səfiyan, Türklər kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖❖❖

Azərbaycan Ordusunun cəbhənin Xocavənd istiqamətində düşmənin mövqelərinə və canlı qüvvəsinə atəşlə zərər vurması davam edir. Düşmənin səngərləri və sığınacaqları artilleriya zərbəsi ilə dağıdılır.

❖❖❖

Saat 15:50-də cəbhənin Xocavənd istiqamətində düşmən tərəfindən fərdi yaşayış evlərinin arasında yerləşdirilmiş və aviasiya vasitələrimizə qarşı tətbiq olunan "Tor-M2KM" zenit-raket kompleksi (ZRK) bölmələrimizin dəqiq atəşi ilə məhv edilir.

Xocavənd istiqamətində düşmənə daha bir ağır zərbə vurulur. Belə ki, düşmənin ataş mövqeyinə çıxarılan "OSA" zenit-raket kompleksi (ZRK) bölmələrimizin dəqiq atəşi ilə məhv edilir. Eyni zamanda düşmənin canlı qüvvəsi darmadağın edilir.

❖❖❖

**Noyabrın 10-da** saat 00:20-də Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutur.

Bir nəfər mülki şəxs xəsarət alır.

❖❖❖

Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan sahəsində Rusiya Hərbi Hava Qüvvələrinin helikopteri vurulur. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edərək başsağlığı verir.

İlham Əliyev bu faciəli təsadüfə görə üzrxahlıq edərək bildirir ki, günün qaranlıq vaxtında həmin helikopter Ermənistan hərbi hava qüvvələrinin helikopteri hesab edilib.

Dövlət başçısı həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verilməsini xahiş edir, xəsarət almış pilotun tezliklə sağalmasını arzu edir.



Prezident Azərbaycan tərəfinin həlak olmuş və xəsarət almış pilotların ailələrinə kompensasiya ödəməyə hazır olduğunu da bildirir.

İlham Əliyev deyir ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bu fakt üzrə cinayət işi qaldırılıb, təhqiqat aparılır. Təqsirkarlar cəzalandırılacaq və bu barədə Rusiya tərəfi məlumatlandırılacaq.

Vladimir Putin telefon zənginə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirir, belə insidentlərin yolverilməz olduğunu qeyd edir. Tərəflər gələcəkdə belə hallara yol verilməyəcəyinə əmin olduqlarını bildirirlər.

❖❖❖



Prezident İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin videokonfrans formatında görüş keçirirlər. Görüşdə Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin üçtərəfli Bəyanatı imzalanır.

Vladimir Putin bildirir ki, bəyanatda şərh edilmiş bu qərar nəinki Ermənistan ilə Azərbaycan arasında çoxillik qarşıdurmaya son qoyacaq, bu torpaqlarda qan tökülməsinə son qoyacaq, həm də bəyanatda təsbit edilən razılaşmalara etibarlı nəzarət mexanizmi yaradacaq, ən başlıcası, uzunmüddətli tarixi perspektiv üçün, regionda münasibətlərin, ilk növbədə həm Azərbaycan, həm də erməni xalqlarının mənafeyi naminə tərəflər arasında dostluq münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradacaq.

Prezident İlham Əliyev vurğulayır ki, bu gün Ermənistan ilə Azərbaycan arasında çoxillik münaqişənin nizamlanması işinə nöqtə, Azərbaycan torpaqlarının işğalına son qoyulur. Münaqişənin hərbi-siyasi nizamlanması regionda uzunmüddətli sülhə, həmrəyliyə gətirib çıxaracaq, qarşıdurmaya və qan tökülməsinə son qoyacaq.

❖❖❖



Prezident xalqa müraciət edib qələbə xəbərini verir.

Qalib Sərkərdə bildirir ki, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur, imzalanmış üçtərəfli Bəyanat isə məsələnin həlli istiqamətində son nöqtə olacaq:

"Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"

Sonra dövlət başçısı bəyanatın mətni ilə hər kəsi tanış edir.

Bununla da 44 günlük Vətən müharibəsi Azərbaycanın şanlı zəfəri ilə başa çatır.

❖❖❖

Prezident İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olur. Dövlət başçıları Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik edirlər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığını bildirir.

Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin ölkəsinin dəstəyinə verdiyi yüksək qiymətə görə təşəkkür edir.

Telefon söhbəti zamanı atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya sülhməramlı mərkəzinin yaradılması yüksək qiymətləndirilir, bu mərkəzin regionda uzunmüddətli sülhün təmin edilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunur.

❖❖❖



Birinci vitse-prezident Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edir:

"Bu gün böyük gündür - Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu! Həqiqətən əlamətdar olan bu hadisə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm!

Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu.

Böyük zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!"

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



# REGİONLAR

## Qubada elmi-praktik konfrans keçirilib



**Qubada "Heydər Əliyev İli" və Soyqırım Memorial Kompleksinin fəaliyyətinin 10 illiyinə həsr edilən elmi-praktik konfrans keçirilib. İştirakçılar öncə Ümummilli Liderin abidəsi önünə gül dəstələri düzərək Heydər Əliyev Mərkəzində təşkil olunmuş sərgi ilə tanış olublar.**

Sonra onlar Quba Soyqırım Memorial Kompleksinə gələrək 1918-ci il qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər. Ziyarət Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə kompleksin ərazisində müxtəlif növ 100 ağacın əkilməsi ilə yekunlaşıb.

Heydər Əliyev Mərkəzinin akt zalında davam edən konfransda Soyqırım Memorial Kompleksinin direktoru tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova çıxış edərək kompleksin 10 illik fəaliyyəti barədə məlumat verib və bu günə kimi görülən tədbirlər barədə danışıb. Vurğulayıb ki, təcavüzkar erməni millətçiləri xalqımıza qarşı 200 ilə yaxın bir müddətdə soyqırımı siyasəti həyata keçirib, azərbaycanlıları tarixi yurdlarından qovmaq, xarici havadarlarının köməyi ilə bu ərazilərdə mifik "böyük Ermənistan" yaratmaq üçün soydaşlarımızı onilliklər boyu ideoloji və hərbi təcavüzə məruz qoyublar.

Konfransda Azərbaycan Respublikası Milli Məclisinin deputatları, AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçiləri, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əməkdaşları və digər rəsmi şəxslər iştirak etmişlər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## GDU-da Zəfər Gününə həsr edilmiş spartakiada təşkil olunub

**Spartakiadanın açılış mərasimində Gəncə Dövlət Universitetinin (GDU) rektoru Yusif Yusibov çıxış edərək 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbədən danışmışdır.**

Qeyd olunmuşdur ki, 8 Noyabr Zəfəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz iradəsinin, böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, əsgər və zabitlərimizin göstərdiyi rəşadətin, yüksək hərbi-texniki və mənəvi-psixoloji hazırlığın təntənəsidir.

Şəhidlərimizin əziz xatirəsinin qəlblərdən heç vaxt silinmədiyini vurğulayan rektor onu da bildirmişdir ki, bu gün Azərbaycan xalqı Zəfər Gününü Qarabağda aparılan misilsiz bərpa-quruculuq işləri fonunda yüksək əhvali-ruhiyyə ilə qeyd edir.

Sonra Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin rəisi İntiqam Hüseynov çıxış edərək spartakiadanın ölkə idmanı üçün əhəmiyyətini vurğulamış və gənc nəslin təlim-tərbiyəsində belə tədbirlərin rolundan danışmışdır. Tədbirdə şəhid Elşən Abdullayevin



atası, universitetin Fizika kafedrasının müəllimi Sabir Abdullayev və şəhid Vidadi İsrafilovun atası Vafiq İsrafilov çıxış edərək şəhidlərimizi daim hörmətlə yad edən universitet rəhbərliyinə təşəkkür etmişlər.

Respublika səviyyəli yarışlarda qazandıqları nailiyyətlərə görə bir neçə idmançı fəxri fərmanlarla təltif edildikdən sonra universitet tələbələrinin idmanın müxtəif növləri üzrə nümunəvi çıxışları olmuşdur.

Sonra spartakiadaya start verilmişdir. Gənclər idmanın şahmat, voleybol, basketbol, futbol, stolüstü tennis və atıcılıq üzrə növləri üzrə yarışlarda qüvvələrini sınamışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



## Torpağın müqəddəs neməti

### Bu gün sahəyə səpilən toxum təknəmizin sabahkı çörəyidir

**Hazırda kəndlini düşündürən, məşğul edən məsələlərdən ən başlıcası taxıl əkinini aqrotexniki tədbirlərə əməl etməklə optimal müddətdə başa çatdırmaqdır. O, bu mühüm kampaniyaya hələ yay aylarında hazırlıq görüb. Arpa, buğda əkəcəyi sahəni müəyyənləşdirərək şum aparıb, məhsuldar toxum növü əldə edib. Hazırda isə ürəyində tutduğu istək və niyyətlə torpağın sinəsinə toxum səpir.**

Bu payız əkinçilik üçün əlverişlidir. Toxum əkilmiş sahələrdə yağış suyu ilə cücərti alınmışdır. Belə halda sahənin həndir-hamar, çala-çökək yerlərində də toxum normal cücərərək torpaqdan baş qaldırır. Göyərən zərif bitkilərin qarşıdakı aylarda, qışın şaxtalı-qarlı günlərində soyuğa necə davam gətirdiyini düşünəndə bir daha böyük Yaradanın varlığı qarşısında baş əyməli olursan. Dərk edirsən ki, Tanrı yaratdığı bəndəsini yaşatmaq üçün nemətlərin şahı olan çörəyin təknələrdən tükənməməsi, üzülməməsi üçün belə edib. Çünki "Çörək Qurandan irəlidir", "Kişi olan duz-çörəyi itirməz", "Allah bizi çörəklə sınağa çəkməsin", "Bir loxma dağ aşırar". Yaşı, tarixi bilinməyən bu müdrik kəlamlar indiyəcən xalqımızın dilindən düşmür. Ağır günlərin izi, əks-sədası duyulur bu sözlərdə. 1941-1945-ci illər müharibəsi zamanı camaatın aclıqdan necə əzab-əziyyət çəkdiyini nənəm həmişə ürəkağrısı ilə danışar, sonra da belinə bağladığı yun şalın arasına qoyduğu dəsmalla göz yaşını silib "Getsin o günlər, bir də gəlməsin" deyərdi. Danışardı ki, Arazın o tayından Pişan adlı quldur öz dəstəsilə tez-tez Kür üstündəki kəndlərə basqın edər, camaatın yığdığı taxılı atlara yükləyib apardı. Yaddaşımda həkk olan həmin söhbətlər sonradan "Nənəmin xatirələri" adlı şeirə çevrildi:

*Nənəm danışdıqca mənsə düşünüb*
*Deyərdim: "Nə gözəl zamanəmiz var".*
*- Ay oğul, soyardı o Pişan bizi,*
*Nə çörək qalardı, nə də ki, paltar.*

*Əlində tatarı, belində naqan,*
*Pişan kəndə girdi, haray qopardı.*
*El-oba batardı tapdağı altda,*
*Atını belədən-belə çapardı.*

*Gəlib talardı o, nəyimiz vardı.*
*Həddimiz olmazdı bir söz deməyə.*
*Arpanı-buğdanı ata çatardı,*
*Biz möhtac qalardıq tərə yeməyə.*

Sovetlər Birliyi dağılmışdı. Keçmiş müttəfiq respublikalar, o cümlədən Azərbyacan müstəqilliyə yeni qovuşduğu üçün bütün sahələrdə çətinliklər yaşanırdı. Bu çətinliklər kənd təsərrüfatında da çox idi. Taxıl qıtlığı, maliyyə çatışmazlığı vardı. Kolxoz və sovxozlar dağılır, əvəzində heç nə yaradılmırdı. Belə bir vaxtda Ulu Öndər Heydər Əliyev aqrar islahatlara başladı, ilk növbədə torpağı kəndliyə verdi, özü də təmənnasız. Ardınca kəndliyə fermerə çevrilmək üçün hər cür yardım göstərdi. Prezident İlham Əliyevin aqrar sahədə həyata keçirdiyi tədbirlər sayəsində isə ölkəmizin kənd təsərrüfatı qeyri-neft sektorunun aparıcı qoluna çevrildi. Nəticədə bu gün Azərbaycan bir çox məhsul üzrə daxili tələbatını yerli istehsal hesabına ödəyir. Düzdür, taxıl həmin məhsulların sırasında hələlik yoxdur. Amma bunun üçün tədbirlər görülür. Üstəlik, çox bərəkətli torpağı olan Qarabağ və Şərqi Zəngəzur işğaldan azad olunub, minlərlə hektar ərazinin minalardan təmizlənəndən sonra əkinə qatılması imkanı yaranıb. Deməli, ölkəmizin taxıl idxalından qurtulacağı gün uzaqda deyil.

Hazırda isə payızlıq taxıl əkininin qızğın çağıdır. Azərbaycanın Ukraynası hesab edilən Cəlilabadda gələn ilin məhsulu üçün 12 min 810 hektara buğda, 3 min 820 hektara arpa toxumu əkilir. Bu günlərədək ümumi əkinin 20 faizi həyata keçirilmişdir. Cəlilabadlı fermerlər səpini noyabr ayının 20-dək başa çatdırmağı qərara almışlar. Taxıl səpininə rayon üzrə 850 texnika cəlb olunmuşdur. Bunun 450-si traktor, 200-ü toxumsəpən aqreqat və digər maşın və mexanizmlərdir.

Salyan, Neftçala və Biləsuvar rayonlarında sentyabr və oktyabrın birinci ongünlüyü yağmurlu keçdiyi üçün pambıq yığımında müəyyən qədər gecikmə yaranmışdır. Növbəli əkinin tətbiqi, habelə taxıl əkinindən ötrü pambıq yığımının başa çatdırılması lazım gəlir. Buna görə fermerlər gecəni gündüzə qatmışlar. Pambığı yığıb qurtaran kimi sahəni şumlayıb taxıl əkəcəklər. Lakin bəzi yonca, bostan-tərəvəz yığılmış sahələrdə, eləcə də digər məhsulu tədarük olunmuş yerlərdə taxıl səpini aparırlar. Gələn ilin məhsulu üçün bu payız Salyanda 16 min, Neftçalada 32 min 900, Biləsuvarda 34 min hektarda taxıl əkini aparılmalıdır. Hər üç rayonda səpinin optimal müddətdə, noyabrın 15-dək başa çatdırılması planlaşdırılmışdır. Məhsulunuz bol, işiniz avand olsun!

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Bu il Göyçayın bağlarından 35 min ton nar tədarükü gözlənilir



**Göyçay sakinlərinin payızda gəlir sahələrindən biri olan nar təsərrüfatlarında yığıma başlanılıb. Narın həm şirəsi, həm də ondan hazırlanan məhsullar dünyanın onlarca ölkəsinə ixrac olunur.**

Göyçayın nar bağlarında məhsul yığımına oktyabrın ilk günlərində başlanılır və proses növbəti ayın ortalarına qədər davam edir. AZƏRTAC xəbər verir ki, son illər göyçaylılar narın 20-dən çox növünü yetişdirməyə nail olsalar da, bağlarda əsasən "Gülövşə", "Vələs", "Şıxbaba", "Şirin nar" və "Bala Mürsəl" sortlarının əkilməsinə üstünlük verirlər.

Otuz ildən çoxdur narçılıqla məşğul olan, "Əmək ordeni" ilə təltif edilən Göyçayın Qaraxıdır kənd sakini Eyvaz Səmədov deyir ki, ötən illə müqayisədə bu il məhsuldarlıq heç də ürəkaçan deyil, amma qiymətlər qaneedicidir. Bunun da əsas səbəbi havaların qeyri-sabit keçməsidir: "Məhsuldarlıq bu il çox zəifdir. Erkən yazda anomal istilər oldu, son aylarda isə mütəmadi yağışlar yağdı. Bundan sonra məhsulda kütləvi çürümə başladı. Dərmanlar da elə təsir göstərmir. Nəticədə qoyduğun sərmayənin heç yarısını çıxara bilmirsən".

Fermerlərin üzləşdiyi çətinliklərdən biri də satışla bağlıdır. Rusiya-Ukrayna müharibəsi nar ixracına da mənfi təsir göstərib. "Məlum səbəblərə görə xarici bazarlara çıxışımız çətinləşib, alıcı qıtlığımız var. Çalışırıq bu vəziyyətdən zərərsiz çıxaq. Sağ olsun, dövlət də dəstəyini göstərir. Nar elə bir meyvədir ki, onun yerli bazarda kifayət qədər alıcısı var. Yəni çox gəlirli sahədir, üstəlik də dövlət dəstəyi var. Şəxsən mən bu il dövlət güzəşti ilə 3 texnika almışam. Dövlət öz dəstəyini göstərir, biz kəndlilərin öhdəsinə isə yalnız çalışmaq düşür", - deyə Eyvaz Səmədov bildirib.

Göyçayda narçılığa maraq ildən-ilə artır, məhsuldar sortların yetişdirilməsi, yeni bağların salınması üçün tədbirlər görülür. Son iki ildə 100 hektardan çox sahədə yeni nar bağları salınıb. Rayonun 20-yə yaxın kəndində yerli əhalinin əsas gəlir mənbəyi olan nar bağlarında, əsasən, ixrac qabiliyyətinə malik sortların yetişdirilməsinə üstünlük verilir. Tədarük edilən məhsulun 85 faizi payız aylarında yerli bazarla yanaşı, xarici bazarlarda da satılır. Bəzi kənd sakinləri bir qədər əziyyətə qatlaşıb məhsulu qış aylarına qədər saxlayır və baha sata bilirlər.

Göyçay sakini Cavanşir Məcidovun sözlərinə görə, bir neçə gündür həyətlərində yetişdirdiyi narın yığımına başlayıb. Yığılan nar ilk növbədə çeşidlənir: "Biz birinci növ narı xarici bazarlara göndəririk, ikinci və üçüncü növü rayon və paytaxt bazarlarına, eləcə də şirə emalı zavodlarına satırıq. Xarici bazara çıxarılan məhsulla yerli bazarda satılan məhsulun qiymətində də fərq var. Ötən illə müqayisədə bu il qiymətlər nisbətən bahadır. Rayon bazarında narın bir kiloqramının qiyməti 1-5 manat arasında dəyişir. Bu, narın növündən və ölçüsündən asılıdır".

Bol vitamin deposu, şəfa qaynağı olan nardan ev şəraitində nar şirəsi, narşərab, turşu, çaxır, limonad, mürəbbə, kompot da hazırlanaraq bazarlarda satışa çıxarılır. Qiymətlər isə hazırlanan məhsula görə dəyişir.

Göyçay Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Famil Nəbiyev deyir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Göyçayda cəmi 251 hektar məhsuldar nar bağı mövcud idisə, hazırda bağların sahəsi 3408 hektara çatıb. Bunun da 3290 hektarı barverəndir. Bu il hər ağacdan orta hesabla 15-30 kiloqram məhsul götürülür. "Son illərdə dövlətin bu sahəyə olan dəstəyi əhalinin narçılığa marağını daha da artırıb. Rayonumuzda nar bağları əsasən Bığır, Alxasava, Qaraxıdır, Qarayazı və digər kəndləri əhatə edir. Dövlət tərəfindən digər meyvə bağlarına olduğu kimi, nar bağlarına da birdəfəlik subsidiya ayrılması fermerlərə əlavə stimul verir. Bizim proqnoza görə, bu il Göyçayın nar bağlarından 35 min ton məhsul tədarükü gözlənilir. İstehsal olunan narın demək olar ki, 50 faizi ixrac potensiallı məhsul olacaq. Biz də istehsalçılarla görüş zamanı, eləcə də nar bağları salınarkən həm sortların seçiminin, həm də düzgün aqrotexniki qulluq etməyin vacibliyini vurğulayırıq. Vətəndaşlar bağlarını intensiv texnologiya əsasında salsalar, həm dövlətin bu sahəyə dəstəyini hiss edəcəklər, həm də bol məhsul götürəcəklər", - deyə F.Nəbiyev vurğulayıb.

## Küçəyə şəhidin adı verilib

**Cəlilabad rayonu Sabirabad kəndinin küçələrindən birinə şəhid Musa Əlifağa oğlu Əsgərovun adı verilib.**

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən RİH-in başçısı Rafiq Cəlilov 2020-ci il sentyabrın 27-də başlanan və Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan böyük Qələbənin tarixi əhəmiyyətindən, şəhidlərin şərəfli döyüş yollarından danışıb, onların xatirələrinin heç vaxt unudulmayacağını qeyd edib.

Daha sonra Musa Əsgərovun adını daşıyan küçəyə vurulmuş barelyefin üzərindən ağ örtük götürülüb. Tədbir iştirakçıları barelyefin önünə gül dəstələri və əklil qoyublar.

Musa Əsgərov 1997-ci il fevralın 17-də Cəlilabad rayonunun Sabirabad kəndində anadan olub. 2003-2011-ci illərdə N.Məmmədov adına Sabirabad kənd tam orta məktəbində, 2011-2014-cü illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsil alıb, Heydər Əliyev adı-



na Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olub. Vətən müharibəsinin ilk günündən cəbhəyə yollanan leytenant Musa Əsgərov Murovdağ və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, sentyabrın 28-də Cəbrayıl rayonunun Cəfərabad kəndində kəşfiyyat zamanı şəhid olub. Prezidentin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

***Ağaddin BABAYEV,***
***Cəlilabad***

## Kür çayına körpə balıqlar buraxılıb



**Balıq növlərinin bərpasına, su bioresurslarının qorunmasına, populyasiyasının artımına dəstək, balıq ehtiyatlarının mühafizəsinin zəruriliyini təşviq etmək məqsədilə Samux rayonunda Kür çayına balıq körpələri buraxılıb.**

Balıqların suya buraxılışında Samux rayonundan olan Milli Qəhrəman Eltun İsgəndərovun atası Xaləddin İsgəndərov, şəhid ataları Savet Rüstəmov, Murad Dostuyev, şəhid övladları Zeynəb Ağamalıyeva, Məxsus Cəfərov, Raul Abdullayev, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin nümayəndələri, ictimaiyyət və məktəblilər iştirak etmişlər.

Kür çayının sahilində keçirilən tədbirdə çəkisi 100 qramadək olan 200 minə yaxın balıq körpəsi çaya buraxılaraq onların təbii artımına, bərpasına dəstək göstərilib.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Qazaxda rəsm sərgisi açılıb

**Zəfər Gününə Qazaxda da geniş hazırlıq işləri görülür. Rayon icra hakimiyyətinin və Qazax Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş "Tarix yazan Qəhrəmanlarımız" adlı rəsm sərgisi də məhz tarixi qələbəmizin ildönümünə həsr edilmişdir.**

Sərginin açılışında Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Sonra söz iştirakçılara verilmişdir. Çıxış edənlər diqqətə çatdırmışlar ki, işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsidir. Bu savaşda Azərbaycan Ordusu əsl qəhrəmanlıq göstərərək 30 illik yurd həsrətinə son qoymuşdur.

Sonra sərginin rəmzi qırmızı lenti kəsilmiş və şəhid ailələrinin üzvləri, qazilər, Vətən müharibəsi iştirakçıları və ictimaiyyət nümayəndələri sərgiyə maraqla tamaşa etmişlər.

***"Azərbaycan"***

# Bakıda Zəfər Günü münasibətilə hərbçilərin yürüşləri keçirilib





8 Noyabr - Zəfər Günü münasibətilə Bakı şəhərinin müxtəlif küçə və prospektlərində hərbi orkestrlərin müşayiəti ilə hərbçilərin yürüşləri keçirilib.

AZƏRTAC xəbər verir ki, yürüşlərdən əvvəl Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Sonra isə hərbi orkestrlərin müşayiəti ilə dörd marşrut üzrə - Heydər Əliyev Sarayı, Bülbül prospekti, Nizami Kino Mərkəzi, Neftçilər prospekti, Azadlıq meydanı, "AMAY" Ticarət Mərkəzi; Şəhidlər xiyabanı, "Alov Qüllələri" Kompleksi, "İçərişəhər" metrosu, İstiqlaliyyət küçəsi, Azneft dairəsi, Bəhram Gur heykəli; Q.Musabəyov parkı, Əbdürrəhim bəy Haqverdiyev küçəsi, Hüseyn Cavid prospekti, Hüseyn Cavid parkı, Parlament prospekti, Şəhidlər xiyabanı; "Olimpik Star" İdman və Əyləncə Mərkəzi, Səməd Vurğun küçəsi, Zabitlər parkı, Bakı Dövlət Sirki, Heydər Əliyev Sarayı, İmadəddin Nəsimi heykəli, Neftçilər prospekti istiqamətləri üzrə hərbçilərin yürüşləri təşkil olunub.

Orkestrlər hərbi vətənpərvərlik mahnıları, marşlar səsləndiriblər.

Hərbi orkestrlərin nümunəvi çıxışları şəhər sakinlərində və qonaqlarda yüksək əhvali-ruhiyyə yaradıb.

Qeyd edək ki, həmçinin Gəncə, Bərdə, Füzuli, Laçın şəhərlərində və Zəngilan rayonunda müəyyənləşdirilən marşrutlar üzrə hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri keçirilib.

Yürüşləri izləyən hər kəsin üzündə zəfər sevincini açıq-aydın hiss etmək mümkün idi.

# Laçında keçirilən Zəfər Günü maraqlı anlarla yadda qaldı



Laçın şəhərində Zəfər Günü münasibətilə silsilə proqramlar çərçivəsində keçirilən tədbirlər maraqla qarşılanıb.

AZƏRTAC xəbər verir ki, Bayraq meydanından start götürən hərbçilərin Bayraq yürüşü orkestrin müşayiəti altında keçirilib. Yürüşə həmçinin rəsmi şəxslər və Laçın sakinləri də qoşulublar.

Laçın şəhərinin Seyrəngah adlı ərazisinə qədər davam edən yürüş başa çatdıqdan sonra tədbirin rəsmi hissəsi başlayıb. Tədbirdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, "Bakı Abadlıq" MMC-nin rəsmiləri, Laçın sakinləri, hərbçilər, hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak ediblər.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi sükutla anılıb.

Orkestr ifaları, müsabiqələr və uşaqlar üçün təşkil edilən şou maraqlı anlara səbəb olub. Müsabiqə qalibləri isə qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Zəfər Günü tədbiri Laçın şəhər bulvarında təşkil edilən konsert proqramı ilə davam edib. Tanınmış müğənnilərin ifaları, aktyorların çıxışları izlənilib. Konsert proqramı laçınlılar tərəfindən alqışlarla qarşılanıb.

Axşam saatlarında isə Seyrəngah adlı məkanda laçınlılar üçün bayram ziyafəti təşkil olunub.

# Füzulidə keçirilən bayram tədbiri atəşfəşanlıqla başa çatıb



Füzulidə 8 Noyabr - Zəfər Günü ilə əlaqədar tədbir keçirilib. Zəfər Günü tədbiri Özbəkistan Prezidentinin özbək xalqı adından Qarabağa hədiyyə olaraq inşa etdirdiyi Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, "Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin əməkdaşları, şəhid ailələri, qazilər, hüquq-mühafizə orqanlarının əməkdaşları, Füzulidə məskunlaşan ailələr və məktəbin kollektivi iştirak ediblər.

Əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Prezidentin xüsusi nümayəndəliyinin rəsmisi Bəşir Hacıyev, şəhid bacısı Könül Məmmədova, qazi Vüsal Cümşüdzadə çıxış edərək, əldə olunan parlaq Qələbədən danışıblar. Qeyd edilib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər Azərbaycan Ordusunun gücü sayəsində torpaqlarımız 44 gündə azad edilib və ərazi bütövlüyümüz təmin olunub. Həmçinin diqqətə çatdırılıb ki, işğaldan azad olunan digər rayonlarımız kimi, Qarabağın dilbər guşələrindən olan Füzuli torpaqlarında da həyat canlanmağa başlayıb və bu günlər Füzuli sakinləri üçün gələcək firavan həyatın başlanğıcıdır.

Daha sonra Zəfər Gününə həsr olunmuş video nümayiş etdirilib.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra konsert olub, xanəndələrin vətənpərvər ruhlu ifaları dinlənilib.

Sonda bayram tədbiri atəşfəşanlıqla başa çatıb.

# Bakıda Zəfər atəşfəşanlığı

8 Noyabr - Zəfər Günü münasibətilə Bakıda Dənizkənarı Milli Parkda təşkil edilən konsert proqramı möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.

AZƏRTAC xəbər verir ki, Dənizkənarı Milli Parkın ərazisindəki Saat qülləsinin yanında təşkil olunmuş konsert tamaşaçılar tərəfindən böyük coşqu ilə qarşılanıb.

Paytaxtımızın minlərlə sakininin və qonaqlarının maraqla izlədiyi konsertdən sonra möhtəşəm atəşfəşanlıq olub, paytaxtın qaranlıq gecəsi al-əlvan rənglərə boyanıb.





# Türkiyə Prezidenti Zəfər Günü ilə bağlı paylaşım edib




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 8 Noyabr - Zəfər Günü münasibətilə sosial şəbəkədə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti yazıb: "Qardaş Azərbaycanın 8 Noyabr - Zəfər Gününü ürəkdən təbrik edir, Qarabağın azadlığı uğrunda 44 gün boyunca qəhrəmancasına döyüşmüş qazilərimizi hörmətlə, şəhidlərimizi ehtiramla yad edirəm. Qarabağ Azərbaycan torpağıdır və inşallah, qiyamətə qədər də belə qalacaq".

# Şuşada möhtəşəm atəşfəşanlıq




8 Noyabr - Zəfər Günü münasibətilə Şuşa şəhərində möhtəşəm atəşfəşanlıq olub. Bayram atəşfəşanlığı Qarabağın, qədim Şuşanın səmasını al-əlvan rənglərə boyayıb.

# Zəngilanda hərbçilərin iştirakı ilə Bayraq yürüşü təşkil olunub



8 Noyabr - Zəfər Günü Zəngilanda da qeyd edilib. Hərbçilərin Ağalı kəndində Bayraq yürüşü təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət qurumlarının nümayəndələri, rayon ictimaiyyəti və Ağalı kəndinin sakinləri iştirak ediblər.

Əvvəlcə Zəngilan şəhərində Şəhidlər xiyabanı ziyarət olunub, Vətən uğrunda canlarını fəda etmiş qəhrəmanların əziz xatirəsi dərin ehtiramla yad edilib. Daha sonra yürüşə start verilib.



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5312
Sifariş 2913

Qiyməti 40 qəpik